www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 11 iyul 2018-ci il Çərşənbə № 148 (7037) Qiyməti 60 qəpik

**Xəbər**

## Saxta su biznesi- milyonlar "su kimi" ciblərə axır

yazısı səh.12-də

**Gündəm**

### Ərdoğan ilk rəsmi səfərini Azərbaycana etdi və şəhidlikdə and içdi



Türkiyə prezidenti şəhidlikdəki xatirə kitabına "Türkiyə-Azərbaycan əlaqələrinin bütün sahələrdə inkişafı və genişlənməsi üçün mübarizəmizi davam etdirəcəyik" yazdı

yazısı səh.3-də

### NATO-nun kritik sammiti başlayır

yazısı səh.5-də

### Azərbaycanlı milyonçunun 690 milyonu İsveçrə bankında batır

yazısı səh.7-də

### Avropa İttifaqı ilə danışıqlar: sənəd gələn il imzalana bilər

yazısı səh.4-də

### Heydər Əsədova yeni ittihamlar - sabiq nazirin yeri bilinmir

yazısı səh.6-da

### Türkiyənin ikinci şəxsi kimdir - dosye

yazısı səh.4-də

### Enerji sisteminin çökməsinin daha bir səbəbi

yazısı səh.12-də

### Qarabağa görə Yeltsini günahlandıran rus politoloqa etirazlar

yazısı səh.9-da

### Brüssel sammiti öncəsi Bakıdan mühüm Qarabağ açıqlamaları

yazısı səh.11-də

### Gəncə işində İran izi - hadisənin arxasında Tehranın göstərilməsi kimə sərf edir?

yazısı səh.9-da

### Suriyada döyüşməyə 1000-dən çox azərbaycanlı gedib-rəsmi iddia

yazısı səh.13-də

# PREZİDENTİN ÜÇ MÜHÜM HƏDƏFİ VƏ MESAJLARI

Dövlət başçısı İlham Əliyevin müşavirədəki çıxışı bir daha göstərdi ki, o, cəmiyyətin hansı məsələlərdən narazı qaldığını hamıdan yaxşı bilir; prezident yeni komanda qarşısında hansı tələb qoyduğunu da açıqladı; "Kimisə cəzalandıranda, kiməsə təşəkkür edəndə ədalət, dəqiq informasiya, təhlil olmalıdır", sözləri o deməkdir ki...



yazısı səh.5-də

## Paşinyan "Rus NATO-su"na daş atıb NATO sammitinə getdi

KTMT-nin baş katibi, Rusiyanın sadiq adamı sayılan general Xaçaturov İrəvana istintaqa çağırıldı - kritik gəlişmə; Kremlin başqa bir adamı - "quyruğu" qapı arasında qalan Robert Köçəryan isə öz generallarını ələ verdi; Putinin cavabı nə olacaq?...

yazısı səh.8-də



### Səlim Müslümovun vurulmasının səbəbi bilindi

yazısı səh.6-da



### Abbas Abbasovun Gəncədəki biznes imperiyası necə çökdürülüb - təfərrüat

yazısı səh.7-də



*Əli Məsimli:*

### "Məmurların gəlirlərini yoxlayan xüsusi qurum yaradılmalıdır"

yazısı səh.10-da

YENİ MÜSAVAT
N 148 (7037) 11 iyul 2018

# İlqar Məmmədovun vəkilinə niyə töhmət verilib?

**Vəkillər Kollegiyasının Rəyasət Heyətinin növbəti iclası keçirilib. Modern.az xəbər verir ki, iclasda vəkillər barəsində başlanılmış 15 intizam icraatı üzrə Vəkillərin İntizam Komissiyasının rəylərinə baxılaraq müvafiq qərarlar qəbul edilib. Həmçinin peşə borcunun həyata keçirilməsi ilə bağlı qanunvericilik aktlarının tələblərinin, vəkillərin davranış qaydaları haqqında əsasnamənin, o cümlədən vəkil etikası normalarının pozuntusu əsası ilə vəkil Ağayev Fuad Arif oğluna töhmət verilib.**


Fuad Ağayev

"Qeyd olunmalıdır ki, Rəyasət Heyətinin iclasından dərhal sonra vəkil Fuad Ağayev tərəfindən mətbuata barəsində aparılan intizam icraatı ilə bağlı təhrif olunmuş məlumatlar verilib. Bununla əlaqədar Rəyasət Heyəti bildirir ki, Vəkillərin İntizam Komissiyası tərəfindən vəkil Fuad Ağayevin öz iştirakı ilə aparılmış araşdırma nəticəsində müəyyən edilib ki, vəkil Fuad Ağayev öz müvəkkili ilə görüş zamanı Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin cəzaçəkmə müəssisələrindən birinin əməkdaşlarının qanuni fəaliyyətinə maneçilik törədib, həmin müəssisənin rəhbərliyinin ünvanına təhqiramiz ifadələr işlədib.

Həmçinin Cəzaların İcrası Məcəlləsinin müəyyən etdiyi müddətləri gözləməməklə vəkil Fuad Ağayev öz müvəkkilinə göndərdiyi məktubun və sənədlərin cəzaçəkmə müəssisəsi tərəfindən çatdırılmaması ilə bağlı sosial şəbəkədə, internet resurslarda əsası olmayan məlumatlar yaymaqla ictimaiyyəti çaşdırıb.

Bununla da vəkil Fuad Ağayev tərəfindən "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinin 3-cü hissəsinin, 16-cı maddənin 1-ci hissəsinin, 18-ci maddəsinin və vəkillərin davranış qaydaları haqqında Əsasnamənin 1.2, 2.5, 2.7 və 2.13-cü maddələrinin tələblərinin pozuntusuna yol verildiyi müəyyən olunub", - Vəkillər Kollegiyasından verilən məlumatda bildirilib.



## NATO sammitinin proqramı açıqlanıb

**"NATO sammiti iştirakçılarının 2020-ci ildən sonra əfqan qüvvələrinin maliyyələşməsini artırmağa razı olacaqları gözlənilir". "Report"un məlumatına görə, bunu NATO-nun baş katibi Yens Stoltenberq Brüsseldə alyansın sammitinin başlanmasına həsr olunmuş mətbuat konfransında deyib.**

Xatırladaq ki, NATO-nun 29-cu sammiti iyulun 11-12-də Belçika paytaxtında keçiriləcək.

Baş katibin sözlərinə görə, iyulun 11-də sammit çərçivəsində üzv ölkələrin liderləri terrorizmlə mübarizədə NATO-nun rolunun artırılması ilə bağlı təkliflər verəcək, NATO-nun yüzlərlə təlimçisinin iştirakı ilə İraqda yeni təlim missiyasının başlanmasına razı olacaqlar.

Sammitin gedişində müttəfiqlər Skopyeni Şimali Makedoniya Respublikası adı altında NATO-ya üzv olmağa dəvət etmək niyyətindədir.

Sammit tərəfdaş ölkələrin iştirakı ilə Əfqanıstan üzrə görüşlə yekunlaşacaq.

Tədbirdə 54 rəsmi nümayəndə heyəti iştirak edəcək.

## "Turan Bank"ın rəhbərliyi dəyişib

**"Turan Bank" ASC-nin səhmdarlarının Ümumi Yığıncağının 29 iyun 2018-ci il tarixli qərarı ilə Bankın idarəetmə orqanlarının tərkibində dəyişikliklər edilib.**

"Report"a daxil olan məlumata görə, "Turan Bank"ın İdarə Heyətinin (İH) sədri vəzifəsini icra edən Rauf Kazımov Bankın Müşahidə Şurasının sədri seçilib. O, bu vəzifədə başqa işə keçmiş Fuad Musayevi əvəz edib.

Bundan başqa, İH sədrinin I müavini Fəzail Musayev sədr vəzifəsinə, İH-nin üzvü Orxan Qarayev sədr müavini vəzifəsinə təyin olunub.

## "Putin İttifaqı"nın erməni baş katibi dindirilməyə çağırıldı

**Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının ("Putin İttifaqı") baş katibi, general-polkovnik Yuri Xaçaturov 2008-ci il martın 1-də baş verən hadisələrlə bağlı aparılan istintaq çərçivəsində dindirilməyə çağırılıb.**

Bu barədə TASS agentliyi Ermənistan Xüsusi İstintaq Xidmətinə istinadən məlumat yayıb.

"Yuri Xaçaturov dindirilməyə çağırılıb. O bildirib ki, gərgin iş qrafiki ilə əlaqədar dindirilməyə yalnız iyulun axırı gedə bilər", - məlumatda deyilir.

Xatırladaq ki, Yuri Xaçaturov 2008-ci il martın 1-də Ermənistan Silahlı Qüvvələrinin Yerevan qarnizonuna rəhbərlik edib. O, 2017-ci ildən KTMT-nin baş katibidir.

## Həbsxanaya mobil telefon keçirilməsinin qarşısı alınıb

**Penitensiar Xidmətin əməliyyat aparatının həyata keçirdiyi əməliyyat-axtarış tədbirləri nəticəsində 12 saylı cəzaçəkmə müəssisəsinə mobil telefon keçirilməsi cəhdinin qarşısı alınıb.**

Xidmətdən verilən məlumata görə, Cinayət Məcəlləsinin 206.3.2, 234.4.1, 234.4.2, 234.4.3 və 66.3-cü maddələri ilə təqsirli bilinərək 12 il müddətinə azadlıqdan məhrum edilmiş məhkum Hətəmov Elşən Qabil oğlunun yanına uzunmüddətli görüşə gələn oğlu Cəlilabad rayon sakini Hətəmov elvin Elşən oğlunun gətirdiyi sovqata və üzərinə baxış keçirilən zaman gətirdiyi əşyaların içərisində sellofan kisədə kiçik xalçaya bükülərək gizlədilən 1 ədəd qara rəngli "General Mobile" markalı mobil telefon aparatı aşkar edilərək götürülüb.

Toplanmış sənədlər və maddi sübut Ədliyyə Nazirliyinin İstintaq idarəsinə göndərilib.

## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01**

## Daha 13 idmançı dopinq-testdə "ilişdi"

**Azərbaycanın daha 13 idmançısı dopinq-testdən keçə bilmədiyi üçün cəzalanıb.**

"Report"un məlumatına görə, bu barədə Azərbaycan Milli Antidopinq Agentliyinin rəsmi saytında bildirilir. İdmançılardan 7-si güləşçi, 4-ü boksçu, qalanları isə ağırlıqqaldıran və taekvondoçudur.

Güləşçilərdən Qurban Qurbanov, Şəhriyar Məmmədov, Heydər Abdullayev, Mansur Şahinov, Xalid Əlizadə və Sübhan Muradov 48 ay, Təbriz Yusubzadə 24 ay, boksçulardan Ağalar Sadıqzadə, Fərid Qasımzadə və Elvin Qəmbərov 48 ay, Mirqadir Miriyev 24 ay, ağırlıqqaldıran Cəbrayıl Abzərli 48 ay, taekvondoçu Ülvi Mustafayev 24 ay müddətinə bütün yarışlardan kənarlaşdırılıb.



## Bu gün 41 dərəcə isti olacaq

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinin verdiyi məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin günəşli olacağı gözlənilir. Şimal-şərq küləyi gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq.**

Havanın temperaturunun Abşeron yarımadasında gecə 24-27, gündüz 35-40, Bakıda gecə 25-27, gündüz 38-40 dərəcə isti olacağı gözlənilir.

Atmosfer təzyiqi normadan aşağı 756 mm civə sütunu, nisbi rütubət gecə 60-70, gündüz 35-45 faiz təşkil edəcək.



## AzTV sədrinə sui-qəsddə təqsirləndirilən şəxslərə cəza istəndi

**Bakı Ağır Cinayətlər Məhkəməsində AzTV sədri Arif Alışanova sui-qəsddə təqsirləndirilən Şücaət Əkbərov, Qoçalı Cəbiyev, Zöhrab Şirinov və Aqşin Hüseynovun cinayət işi üzrə məhkəmə davam edib.**

Musavat.com-un məlumatına görə, hakim Əfqan Hacıyevin sədrliyi ilə keçirilən prosesdə prokuror Fərid Nağıyev çıxış edərək Şücaət Əkbərovun 18 il, Qoçali Cəbiyevin 16 il, Zöhrab Şirinovun 17 il, Aqşin Hüseynovun 6 il müddətinə azadlıqdan məhrum edilməsini istəyib.

Prokuror həmçinin Ş.Əkbərovun özü, keçmiş həyat yoldaşı və qızının adına olan bir sıra əmlakın müsadirə olunmasını və Alışanova dəymiş ziyanın ödənməsinə yönəldilməsini istəyib.

Proses iyulun 13-də davam edəcək.

Qeyd edək ki, təqsirləndirilən şəxslər Cinayət Məcəlləsinin 29,120-ci (qəsdən adam öldürməyə cəhd), 178-ci (dələduzluq) və digər maddələrinə əsasən ittiham olunurlar.

## Sülhməramlılarımız Əfqanıstana getdi

**NATO-nun "Qətiyyətli Dəstək" missiyasının tərkibində fəaliyyət göstərmək məqsədilə Azərbaycan ordusunun bir qrup sülhməramlısı plana uyğun olaraq, rotasiya qaydasında Əfqanıstana yola salınıb.**

Bu barədə APA-ya Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib.

Azərbaycan ordusunun Əfqanıstandakı sülhməramlı missiyası 2002-ci il noyabrın 20-dən başlayıb.

Hazırda Azərbaycan ordusunun 120 hərbi qulluqçusu, 2 hərbi həkimi və 6 qərargah zabiti olmaqla Əfqanıstandakı missiyada iştirak edir.



## Duqin Ermənistanda: "Bütün Qarabağ Azərbaycan ərazisidir"

**Ermənistandakı hökumətyönlü KİV-lərdən biri, 1in.am saytı Beynəlxalq Avrasiya Hərəkatının lideri Aleksandr Duqinlə müsahibə yayıb.**

Virtualaz.org bildirir ki, haqqin.az portalı erməni dilində yayımlanan həmin müsahibənin ən aktual hissələrini rus dilində dərc edib.

A.Duqin bu yaxınlarda Azərbaycan ordusunun 2016-cı ilin aprelində işğaldan azad etdiyi Cocuq Mərcanlıya səfəri ilə bağlı sualı da cavablandırıb: "Hər şeydən əvvəl, siz bilməlisiniz ki, Rusiyanın fikrincə, təkcə Qarabağ ətrafındakı beş rayon deyil, həm də bütün Qarabağ Azərbaycanın ərazisidir. Bu beynəlxalq hüquqda da təsbit olunub. Və düşünürəm ki, mənim ölkəmin Azərbaycan torpağı kimi tanıdığı əraziyə baş çəkməyim təbiidir. İkincisi, bu Lələtəpənin şəhərətrafına səfər idi. Bunu heç cür hər hansı hərbi məqsədlərlə baş çəkmək adlandırmaq olmaz. Mənim əllərimdə silah yox idi və mən hərbi əməliyyatlarda iştirak etməmişəm. Sadəcə, anlamaq istəyirdim ki, bu ərazidə nələr baş verir, onlar nə dərəcədə dağıdıcıdır, nə qədər təhlükəlidir və sonrakı hadisələr necə inkişaf edə bilər. Və təkrar edirəm: biz bu əraziləri Azərbaycan torpağı kimi tanıyırıq və istənilən Rusiya vətəndaşının orada olması tamamilə normaldır..."

## "Putin mənim rəqibimdir"

**"Rusiya prezidenti Vladimir Putin mənim rəqibimdir". "Russia Today" xəbər verir ki, bunu ABŞ prezidenti Donald Tramp CNN müxbirinin sualını cavblandırarkən bildirib.**

Jurnalistin "Siz Putini özünüzə dost, ya düşmən bilirsiniz" sualına cavabında Donlad Tramp deyib: "Rusiya prezidenti Vladimir Putin mənim rəqibimdir".

Qeyd edək ki, iyulun 16-da Finlandiyanın paytaxtı Helsinki şəhərində ABŞ prezidenti Donald Trampla Rusiya prezidenti Vladimir Putinin görüşü planlaşdırılıb.

YENİ MÜSAVAT
N 148 (7037) 11 iyul 2018

**İyulun 10-da Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan yeni prezidentlik müddətində ilk rəsmi səfərini Azərbaycana edib. Heydər Əliyev hava limanında ali qonağı baş nazirin birinci müavini Yaqub Eyyubov və digər rəsmi şəxslər qarşılayıb.**



# Ərdoğan ilk rəsmi səfərini Azərbaycana etdi və şəhidlikdə and içdi

## Türkiyə və Azərbaycan prezidentlərindən Bakıdan qardaşlıq mesajları

Türkiyə prezidenti Fəxri Xiyabana gələrək mərhum prezident Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub.

Ali qonaq Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından şəhidlərin məzarlarını ziyarət edib. Sonra prezident Şəhidlər Xiyabanında şəhid türk əsgərlərinin xatirəsinə ucaldılmış abidəni ziyarət edərək önünə əklil qoyub, xatirə kitabına ürək sözlərini yazıb və oxuyub: "Sizin fədakarlığınızdan aldığımız ilhamla bu günə qədər olduğu kimi, inşallah, bundan sonra da Türkiyə-Azərbaycan əlaqələrinin bütün sahələrdə inkişafı və genişlənməsi üçün mübarizəmizi davam etdirəcəyik. Ruhunuz şad olsun!"

**Ərdoğan AzTV-yə müsahibə verib. Prezident Rəcəb Tayyib Ərdoğan deyib:** "Bildiyiniz kimi, biz bu qardaşlığımızı "Bir millət, iki dövlət" anlayışı ilə bu günə qədər gətirdik. Dünən andiçmə mərasimimizi keçirdik, yeni hökumətimizin tərkibini açıqladıq. Ardınca isə Azərbaycanda prezident seçkilərindən dərhal sonra qardaşım İlham Əliyev bizi necə ziyarət etdisə, biz də ilk səfərimizi Azərbaycana edirik. Bu qardaşlıq mesajımızı azərbaycanlı qardaşlarımıza ən güclü şəkildə çatdırmaq istəyirik. Bu qardaşlığımızın güclənərək davam edəcəyinə inanıram".

Sonra R.T.Ərdoğan Azərbaycan prezidenti İlham Əliyevlə görüşüb. Rəsmi qarşılanma mərasimindən sonra prezidentlərin təkbətək görüşü olub. Görüşdə Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi bildirilib. Əlaqələrimizin bundan sonra da möhkəmlənəcəyinə inam ifadə olunub. Təkbətək görüş başa çatdıqdan





sonra Azərbaycan və Türkiyə prezidentlərinin işçi nahar çərçivəsində geniş tərkibdə görüşü olub.

"Türkiyə Dağlıq Qarabağ məsələsində daim Azərbaycana dəstək verir". APA-nın məlumatına görə, geniş tərkibli görüşdən sonra keçirilən mətbuat konfransında prezident İlham Əliyev belə deyib. Dövlət başçısı deyib ki, Ermənistan BMT qətnamələrinə əməl etməlidir, Azərbaycan əraziləri işğaldan azad edilməlidir: "Türkiyənin mövqeyi beynəlxalq hüquqa tam uyğundur. Azərbaycan da daim Türkiyəni dəstəkləyir". İ. Əliyev qeyd edib ki, Türkiyə ordusu dünyada ən güclü ordulardan biridir.

**Dövlət başçısı bildirib ki, Azərbaycan Türkiyədən yeni, müasir silahlar alır və bu silahların bir hissəsi bu günlərdə Bakıda keçirilən hərbi paradda nümayiş etdirilib:** "Bu il Türkiyə ilə Azərbaycan arasında hərbçilərin iştirakı ilə 7 birgə təlim keçirilməlidir. Bu təlimlərdən 3-ü keçirilib, dördü də keçiriləcək".

**"Azərbaycanla həm enerji, həm də müdafiə sənayesi sahəsində atdığımız addımlar böyük əhəmiyyət kəsb edir". Bu sözləri isə Türkiyə prezidenti deyib. Türkiyə prezidenti deyib ki, TANAP Azərbaycan üçün həyati əhəmiyyətli layihədir:** "Bu layihə tək Azərbaycan və Türkiyə deyil, Azərbaycanla Avropa arasında əlaqə yaradır. Bu, həm də qardaşlığımıza qoyulan strateji sərmayədir. Azərbaycanın Türkiyədəki Əliağa layihəsinə qoyduğu sərmayə çox önəmlidir. Payızda yeni sərmayə qoyuluşu ilə bağlı layihələr həyata keçirəcəyik".

**R.T.Ərdoğan qeyd edib ki, Azərbaycan və Türkiyə bir millət, iki dövlətdir:** "Hazırda iki ölkə arasında ticarət əlaqələri artır, münasibətlər inkişaf edir. Bu, qardaşlıq münasibətlərimizin necə inkişaf etdiyini göstərir. Türkiyə müdafiə sənayesində 15 il əvvəl kimlərəsə möhtac idisə, indiki müdafiə məhsullarına ehtiyacının 65 faizini özü təmin edir. Biz bu imkanlarımızı qardaş ölkələrlə də paylaşırıq".

**"Azərbaycan prezidentinə FETÖ-yə qarşı mübarizə ilə bağlı təşəkkür edirəm" deyən Ərdoğan bildirib ki, iki ölkənin təhsil nazirlikləri bu sahədə problemləri həll etmək üçün birgə çalışacaq. O qeyd edib ki, Türkiyə Dağlıq Qarabağ və Naxçıvan məsələlərində üzərinə düşəni edib və etməyə davam edəcək:** "Naxçıvanla Türkiyə arasında quru yolları ilə bağlı çətinliklər aradan qalxıb. Biz indi bir dəmir yolu çəkməklə nəqliyyat əlaqələrini inkişaf etdirərək bu sahədə daha bir önəmli addım olacaq".

R.T.Ərdoğan Azərbaycana səfərini başa vurduqdan sonra Bakıdan Şimal Kipr Türk Cümhuriyyətinə yola düşüb.

❑ **Elşad PAŞASOY, "Yeni Müsavat"**

# "Terror hadisəsi Gəncədə xaos yaratmağa hesablanıb" - rektordan açıqlama

## "Elmar Vəliyevə atılan namərd gülləsi dövlətə, dövlətçiliyə qarşı cinayət deməkdir"







**"Bu terror aktının məhz Gəncə Şəhər İcra Hakimiyyətinin inzibati binasının qarşısında, şəhərin mərkəzində nümayişkaranə şəkildə həyata keçirilməsinə göstərilən cəhd Gəncədə xaos, anarxiya, itaətsizlik, o cümlədən insanlar arasında vahimə, qorxu yaratmağa, sabitliyi pozmağa hesablanmışdır" - bu sözləri 1996-cı ildən Gəncədə fəaliyyət göstərən "Yeni Gəncə" qəzetinə Gəncə Dövlət Universitetinin rektoru, professor Yusif Yusibov deyib.**

Rektor terror aktına məruz qalan Elmar Vəliyevin Gəncənin yenilənməsində rolundan danışarkən onun yorulmaz fəaliyyəti, əməyinin danılmaz olduğunu söyləyib.

**Gəncəli sahibkar Xaliq Cənnətov** isə yenigence.com-a deyib ki, 3 iyulda baş verən terror hadisəsindən sarsılıb: "Gəncənin dinamik, sürətli inkişafında həqiqətən böyük xidmətlər göstərən şəhərin icra hakimiyyətinin başçısı Elmar Vəliyevə atılan namərd gülləsi dövlətə, dövlətçiliyə qarşı cinayət etmək deməkdir".

O qeyd edib ki, bir icra başçısı kimi üzərinə düşən bütün vəzifələri ləyaqətlə, vicdanla yerinə yetirən Elmar Vəliyevin rəhbərliyi ilə ölkədə həyata keçirilən uğurlu regional inkişaf siyasəti nəticəsində Gəncə şəhəri Cənubi Qafqazın ən gözəl şəhərlərindən birinə çevrilib: "Son 7 il müddətində Gəncədə yaradılan parklar, muzeylər, tikilən yeni uşaq bağçaları, orta məktəblər, abadlaşan qəsəbələr, sakinlərin rifah halının yaxşılaşdırılmasına xidmət edən sosial obyektlər, ticarət mərkəzləri şəhər sakinlərinin böyük razılığı ilə qarşılanıb. Sahibkar olduğum üçün xüsusilə qeyd edim ki, dövlətimizin başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə yeni istehsal sahələrinin, emal və infrastruktur sahələrinin yaradılması hesabına Gəncə iqtisadiyyatı gündən-günə inkişaf edib. Bütün bunlar həm də yeni iş yerlərinin yaradılmasına, sakinlərin məşğulluğunun artmasına imkan yaradıb. Ona görə də belə bir cinayətin törədilməsi şəhər sakinlərinin hiddətinə səbəb olub. Bu hadisənin tək Elmar Vəliyevə deyil, dövlətə və dövlətçiliyə, Azərbaycan Prezidentinin siyasi kursuna qarşı törədilmiş terror aktı olduğunu dərindən dərk edən hər kəs ölkə başçısının ətrafında sıx birləşməli, daha da diqqətli olmalı, cəmiyyətdə yanlış rəy formalaşdıran mülahizələrə yol verməməlidir".

Yada salaq ki, Baş Prokurorluq, Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizliyi Xidmətinin mətbuat xidmətləri Elmar Vəliyevin terrora məruz qaldığını təsdiqləyən birgə rəsmi məlumatla çıxış ediblər. Məlumatda deyilir ki, Gəncə şəhərində anadan olmuş Yunis Səfərov Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyevə və Gəncə Şəhər Baş Polis İdarəsinin əməkdaşı polis serjantı Qasım Aşbazova odlu silahdan atəş açaraq müxtəlif dərəcəli bədən xəsarətləri yetirib. Fakt üzrə başlanılmış cinayət işi üzrə həyata keçirilən istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri ilə müəyyən edilib ki, Rusiya Federasiyasının vətəndaşı olan Yunis Səfərovun törətdiyi bu cinayət məqsədyönlü şəkildə həyata keçirilən əvvəlcədən planlaşdırılmış terror aktıdır. O, 2016-cı ildə İran İslam Respublikasına gedərək 8 ay Qum şəhərində yaşamış və bu müddət ərzində Azərbaycan vətəndaşı olan Rasim Əsədovla birgə Suriya Ərəb Respublikasının ərazisində olan silahlı birləşmələrin tərkibində döyüş təlimi keçib. Baş vermiş terror aktı ilə əlaqəli bu günə qədər 12 nəfər saxlanılıb. Hazırda istintaq davam edir.

❑ **E.HÜSEYNOV, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 148 (7037) 11 iyul 2018

**Avropa Parlamentinin ötən həftə Azərbaycanla bağlı qəbul etdiyi qətnamə, Avropa İttifaqı ilə saziş imzalanması üçün irəli sürdüyü şərtlər Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrinə kölgə salmayacaq. Bunu həm Azərbaycanın Xarici İşlər Nazirliyinin iki gün öncə bəyan etdiyi mövqeyi, həm də iyulun 8-də prezident İlham Əliyevin Nazirlər Kabinetinin iclasındakı nitqi zamanı söylədiyi fikirlər təsdiq edir. Prezident deyib ki, Avropa İttifaqı ilə yeni saziş üzərində iş gedir: "Avropa İttifaqına üzv ölkələrin üçdəbir hissəsi ilə Azərbaycanın strateji tərəfdaşlığı haqqında sənədlər vardır. Bu, əlbəttə, onu göstərir ki, Azərbaycan Avropa üçün strateji əhəmiyyət daşıyan ölkədir".**

# Avropa İttifaqı ilə danışıqlar: sənəd gələn il imzalana bilər

## Prezident: "Azərbaycan Avropa üçün strateji əhəmiyyət daşıyan ölkədir"

Avropa Parlamentinin danışıqlar getdiyi vaxtda şərtlər irəli sürməsini isə nəinki hakimiyyət, hətta hakimiyyətə müxalifətdə olan bir sıra siyasətçilər də tənqid ediblər. Məsələn, Real Partiyasının hazırda həbsdə olan sədri İlqar Məmmədov Avropa Parlamentinin mövqeyinin qənaətbəxş olmadığını bəyan edib: "Avropa Parlamentinin mən də daxil olmaqla Azərbaycanda siyasi məhbusların buraxılmayacağı təqdirdə, Azərbaycanla Avropa İttifaqı arasında imzalanması planlaşdırılan sazişi ratifikasiya etməyəcəyi ilə bağlı mövqeyi qənaətbəxş deyil".

İ.Məmmədov vurğulayıb ki, Avropa Parlamenti 2013 və 2014-cü illərdə qətnamələr qəbul edərək, Azərbaycan hökumətindən onun dərhal və qeyd-şərtsiz azadlığa buraxılmasına istəyib.

Avropa Parlamentinin hazırkı qətnaməsi əvvəlki mövqeyindən geri çəkilmək anlamına gəlir. Çünki ən optimist Avropa İttifaqı rəsmisi sazişin ən yaxşı halda 2019-cu ilin payızında imzalanacağını proqnozlaşdırır. Sazişin ratifikasiyası da hər bir halda 2020-ci ilə təsadüf edəcək. İ.Məmmədov hesab edir ki, bununla da Avropa Parlamenti faktiki olaraq onun 2020-ci ilin fevralına, yəni ona verilmiş cəza müddətinin sonuna qədər həbsdə saxlanmasına imkan yaratmış oldu.

Avropa İttifaqı üzrə ekspert Yeganə Hacıyeva "Yeni Müsavat"a şərhində bildirdi ki, Avropa İttifaqı ilə uzun müddətdir başlanan danışıqlar prosesi dayandırılmayacaq: "Əksinə, burada danışıqların sürətləndirilməsinə çağırışdan danışıla bilər. Avropa İttifaqının siyasi orqanı olan Avropa Parlamentinin Azərbaycanla sazişə dair qəbul etdiyi qətnamə gözlənilən sazişin imzalanmasına bir hazırlıq kimi dəyərləndirilməlidir. Bu sənədi qadağa hesab etmək yanlışdır. Sənə də Aİ və Azərbaycan arasında imzalanacaq yeni sazişin hər iki tərəf üçün konkret faydalar vəd etməsi və imzalanması üçün 8 tövsiyə öz əksini tapır".



**Ekspert qeyd etdi ki, Aİ-nin bütün digər tərəfdaşlara tətbiq etdiyi kimi Azərbaycanla da önə çəkdiyi məqam siyasi, iqtisadi və təhlükəsizlik sahəsində maraqların təmin olunmasıdır:** "Xüsusi olaraq təhlükəsizlik sahəsində maraqların təmin olunması hər iki tərəf üçün önəmlidir. Bu məqam isə Cənubi Qafqazın əsas konflikti kimi Dağlıq Qarabağ konfliktinin həllini labüd edir. Konfliktin həlli Azərbaycan üçün konstitusiyanın tələbi kimi ərazi bütövlüyünü bərpa etmək və ölkə ərazisinin hər bir hissəsinə nəzarəti bərpa etməyə görə, Aİ üçün isə enerji təhlükəsizliyinin dayanıqlı olması üçün vacibdir. Onu da qeyd edim ki, Avropa İttifaqı bu münaqişənin tərəfləri olan hər iki ölkə ilə əməkdaşlığı bütöv şəkildə etməkdə maraqlıdır. Məsələ ondadır ki, konflikt həll olunmayana qədər Azərbaycan heç vaxt Ermənistanı icra etdiyi layihələrə buraxmayacaq. Avropa İttifaqı öz fəallığını məhz bu amillərə görə artırmaq istəyir. Problemin həlli ilə bağlı danışıqlarda icmaların da iştirakı ilə bağlı qeyd olunan müddəalar Ermənistanın yeni siyasi rəhbərliyinə verilən tutarlı cavabdır. Bu o anlama gəlir ki, danışıqlar başqa formata keçməyəcək. Çünki yeni baş nazir Paşinyan qondarma qurumu müstəqil tərəf kimi prosesə cəlb etmək istəyini ifadə etmişdi. Qətnamədə danışıqlar formatında əsas münaqişə tərəfi kimi Ermənistan və Azərbaycan, maraqlı tərəf kimi isə hər iki icma göstərilir".

AP-ın qətnaməsində əksini tapan 8 tövsiyədən biri Aİ-Azərbaycan müzakirələri yekunlaşdırılmazdan öncə siyasi məhbus mövzusunun daha geniş müzakirəsinin təmin etməlməsi və siyasi dialoqun dərinləşməsi tövsiyəsidir.

Ekspertin fikrincə, Azərbaycan-Avropa İttifaqı sazişinin təxminən 2019-cu ilin sonunda imzalanması ehtimalı böyükdür. Danışıqlar prosesinin bir xeyli hissəsi artıq arxada qalıb.

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# Türkiyənin ikinci şəxsi kimdir - dosye

## Hasan Oktay: "16 ildir yığılmış problemləri ancaq texnokrat kabinet həll edə bilər"



**Türkiyənin yeni seçilmiş prezidenti Rəcəb Tayyib Ərdoğan ölkənin yeni hökumət sisteminə keçidə dair 3 qərarnamə imzalayıb. 1 saylı qərarnamədə prezident kabineti barədə tətbiqetmələr yer alıb. 92 səhifəlik qərarnamədə vitse-prezidentin səlahiyyətləri, mandatları qeyd olunub. Yeni qaydalara əsasən, prezident postu hər hansı səbəbə görə boşalarsa bu vəzifəni ən yaşlı vitse-prezident tutacaq.**

Yeri gəlmişkən, Ərdoğanın prezident kimi Azərbaycan və Şimali Kiprə ilk səfəri zamanı ölkəyə Fuad Oktay rəhbərlik edəcək. Yeni qaydalara əsasən prezident artıq Baş Qərargah rəisi vəzifəsinə təyinatı həyata keçirib. Türkiyə ordusu ənənələrinə əsasən quru qoşunları komandanı, ordu generalı Yaşar Gülər baş qərargah rəisi təyin olunub.

Prezidentin imzaladığı 2 saylı qərarnamədə isə dövlət və ictimai qurumlarda kadrların təyinatı, ləğvi və istifadəsi qaydaları yer alıb. 3 saylı qərarnamədə isə əsasən yüksək dövlət postlarına rəhbər kadrların təyinatı qaydaları yer alıb. Bildiyi kimi, artıq yeni hökumət kabineti də təsdiq olunub. Baş nazir postu ləğv olunduqdan sonra hökumət birbaşa prezidentin tabeliyində fəaliyyət göstərəcək.

Yeni kabinetdə ən çox diqqət çəkən detallar - xarici və daxili işlər nazirlərinin yerində qalması, keçmiş baş qərargah rəisi, ordu generalı Hulusi Akarın müdafiə naziri təyin olunması və nəhayət, prezidentin kürəkəni və keçmiş kabinetdə enerji və təbii ehtiyatlar naziri postunu tutmuş Berat Albayrakın bu dəfə maliyyə naziri postuna təyin olunmasıdır.

Prezidentin daha çox etimad etdiyi Albayrakı məhz Türkiyənin son aylarda ciddi sınaqlarla üzləşdiyi maliyyə sahəsinə gətirməsi diqqəti çəkir. Hazırda Türkiyə milli valyutası ciddi dəyər itirib, son aylarda bir neçə dəfə kəskin inflyasiya yaşanıb. Hətta keçmiş maliyyə naziri və son kabinetdə baş nazirin müavini olmuş Mehmet Şimşəyin verdiyi pessimist açıqlamalar prezident Ərdoğanın sərt təpkisi ilə qarşılaşmışdı. İndi isə prezident maliyyə sahəsinə ən çox etibar etdiyi yaxın adamını təyin edib.

Ən çox diqqət çəkən kabinet yeniliklərindən biri də vitse-prezident postuna təyinatla bağlı olub. Yeni sistemin qanunlarına əsasən Türkiyə prezidentinin müavinləri, yəni vitse-prezident vəzifəsinə təyinat prezidentin səlahiyyətindədir. Eyni zamanda vitse-prezident sayını da prezident özü müəyyən edəcək. Ancaq hələlik vitse-prezident postuna, sadəcə, bir nəfər təyin olunub. Bu, 54 yaşlı Fuad Oqtaydır. Hazırda o, Türkiyənin ikinci şəxsidir. 1964-cü ildə Yozqat vilayətində doğulan Fuad Oqtay Çukurova Universitetinin biznes şöbəsində təhsil alıb, həmin təhsil ocağında tədqiqatçı vəzifəsində çalışıb. ABŞ-ın Detroyt şəhərindəki Ueyn Universitetində emal mühəndisliyi və biznes sahəsi üzrə ali kurs bitirib, həmin təhsil ocağında sənaye mühəndisliyi sahəsində doktor dərəcəsi alıb, hava və avtomobil sənayesi üzrə ixtisaslaşıb, "Ford", "Ceneral Motors", "Kraysler" şirkətlərində yüksək postlar tutub. 2000-ci illərin əvvəlində İstanbulun Beykent Universitetində dekan müavini və biznes şöbəsinin müdiri olub. 2008-2012-ci illərdə "Türk Hava Yolları"nda çalışan Fuad Oqtay həmçinin Xarici İqtisadi Əlaqələr Qurumunda məsul vəzifə tutub, 2012-ci ildən Fövqəladə Hallar Qurumuna rəhbərlik edib, 2016-cı ildən baş nazir aparatının rəhbəri olub. Göründüyü kimi, yeni vitse-prezident daha çox aparat məmuru, texnokrat və siyasətdən kənar şəxsdir. Ehtimal etmək olar ki, Oqtay yeni postunda da əsasən aparat rəhbəri və təşkilati işlərə nəzarət edəcək.



Fuad Oktay

**Ankarada fəaliyyət göstərən "Kafkassam" Strateji Araşdırmalar Mərkəzinin rəhbəri Hasan Oktay "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, yeni hökumət kabineti işgüzar, daha çox problemlərin həllinə yönəlmiş kadrlardır. Və yeni hökumət kabineti Türkiyənin daha da inkişaf etməsi hədəfinə xidmət edən bir komanda kimi formalaşıb:** "Texnokrat kabinet deyə biləcəyimiz bir Nazirlər Kabineti var. Burada sürətli qərar qəbul etmək, problemlərin həlli və inkişafa xidmət edən layihələr gözləmək lazımdır. Siyasi partiyaların nəzarətində olan əvvəlki kabinetlərdə əsasən bir müddət sonra öz partiyalarının işlərini görür, vətəndaşlara xidmət üçün çalışmazdılar. Ancaq indi 16 ildir yığılmış problemlər həll olunmalıdır. Bunu da ancaq belə bir texnokrat kabinet həll edə bilər. İndi artıq millət vəkilləri öz qanunvericilik fəaliyyətinə dönəcəklər, nazirliklərin fəaliyyətinə mane olmaq yolundan imtina edəcəklər. Nazirlər artıq seçilmədikləri üçün seçicilərə qarşı populist davranmayacaq, ölkənin problemlərini həll etməyə başlayacaqlar".

**H.Oktay deyir ki, yeni prezident üsul-idarəsi sistemində Türkiyədə çox şey dəyişəcək. Xüsusən də sürətli qərar qəbul etmə və həyata keçirmə daha çox ön planda olacaq. Ancaq məlum olduğu kimi, hazırda yeni dəyişikliklərdən sonra Türkiyədə parlament üzvlərinin sayı 550-dən 600-ə qaldırılıb. AKP isə son seçkilərə əsasən 301 nəfərlik minimal üstünlüyü əldə edə bilməyib. Bu səbəbdən hökumətin parlamentdə ciddi müxalif təzyiqlə qarşılaşacağı gözlənilir. Oktay deyir ki, parlamentdə hər nə qədər AKP-nin qanunları keçirmək üçün 301 nəfərlik çoxluğu olmasa da, MHP ilə ittifaqı davam etdirməsi bu problemi həll edəcək:** "Bu da onu göstərir ki, Türkiyədə 52,5 faizlik seçici dəstəyi ilə iqtidar fəaliyyətini davam edəcək. Düşünürəm ki, deputatlar qanunları hazırladığı vaxtda hökumət ölkənin inkişafı üçün çalışacaq. Bu isə Türkiyədə yeni uğurlu bir mərhələnin başlanğıcı olacaq".

❑ **Kənan RÖVSƏNOĞLU, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 148 (7037) 11 iyul 2018



# Prezidentin üç mühüm hədəfi və mesajları

Dövlət başçısı İlham Əliyevin müşavirədəki çıxışı bir daha göstərdi ki, o, cəmiyyətin hansı məsələlərdən narazı qaldığını hamıdan yaxşı bilir; prezident yeni komanda qarşısında hansı tələb qoyduğunu da açıqladı; "Kimisə cəzalandıranda, kiməsə təşəkkür edəndə ədalət, dəqiq informasiya, təhlil olmalıdır" sözləri o deməkdir ki...

**Prezident İlham Əliyevin iyulun 8-də 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan müşavirədə çıxışı ölkənin əsas gündəm mövzusudur. Məlumdur ki, son həftədə ölkədə işıq problemi yaşanmış, Gəncənin icra başçısına sui-qəsd edilmişdi.**

Dövlət başçısı çıxışının birinci hissəsində ölkədə görülmüş işlərdən danışıb. Hesabat məruzələrindən sonra isə dövlət başçısı yenidən çıxış edərək bu dəfə əsas diqqəti hakimiyyət komandasına yönəldib.

Prezidentin çıxışında hakim komandaya yönəlik mesajlarında əsas iki xətt önə çıxıb. Birinci əsas xətt məmur məsuliyyəti məsələsidir. Çünki məlum qəza yaşananda cəmiyyətin əsas qınağı məhz məmur məsuliyyətinə yönəlmişdi.

Müşavirədəki çıxışda əsas vurğunun məhz məmur məsuliyyətinə edilməsi bir daha göstərir ki, birincisi, prezident İlham Əliyev cəmiyyətin hansı məsələlərdən narazı qaldığını, həssas yanaşdığını yaxşı bilir. Təsadüfi deyil ki, dövlət başçısı müşavirədə məhz xalqı narazı salan beş mühüm sahədən-sosial təminat sahəsindəki pozuntulardan, işsizlikdən, qanunsuz tikintilərdən, şəhər nəqliyyatından və rüşvətxorluqdan danışdı. Prezidentin bu problemləri qabartması həm də o deməkdir ki, ölkədə baş verənlərə ciddi nəzarət edir, hər bir məmurun gördüyü işdən xəbərdardır. Bu həm də məlum hadisələr vaxtı Azərbaycanı istəməyən xarici qüvvələrin və daxildəki azsaylı müxalifətin problemdən öz məqsədləri üçün yararlanaraq "ölkəyə nəzarət zəifləyib" kimi sərsəm iddialarına tutarlı cavabdır.

Prezidentin ən mühüm mesajlarından biri də xalqı narazı salan məmurların kimliyindən və xidmətlərindən asılı olmayaraq cəzalandırılacağını bir neçə dəfə təkrar etməsidir. Dövlət başçısının çıxışında "niyə filankəs tutulmur", "niyə filan məmur işıq böhranına görə cəzalandırılmır" kimi xüsusən sosial şəbəkələrdə səslənən iradlara çox dolğun bir cavab var. Dövlət başçısı ilk günlərdə isti havanın bütün ölkədə enerji böhran yaratması izahatını qəbul etmədiyini dilə gətirərək deyib: "Bütün işlərdə biz ədalətli olmalıyıq. Kimisə cəzalandıranda, kiməsə təşəkkür edəndə ədalət, dəqiq informasiya, təhlil olmalıdır". İlham Əliyevin çıxışının bu hissəsi media üçün bir açar rolu oynaya bilir. Bu fikirlər bir daha onu sübut edir ki, ölkədə hər hansı rezonans doğuran həbs, hansısa nazirin kiminsə işdən çıxarılması, cəzalandırılması "dəqiq informasiyaya və təhlilə" əsaslanır.

**Dövlət başçısı əhalinin aztəminatlı hissəsi və sosial gərginlik doğuran işsizlik problemlərinə geniş toxunaraq bu sahədə də dönüş yaradılmasını, buraxılan səhvlərin aradan qaldırılmasını tələb edib. İlham Əliyev bağlanan iş yerləri ilə bağlı dediklərinə diqqət edək:** "Öyrənilməlidir ki, hansı səbəblərə görə bu iş yerləri bağlanıb və o iş yerlərini itirən vətəndaşlar hansı işlərlə təmin olunub və olunubmu, yoxsa yox?"

**Prezident bu ilin aprelində formalaşdırılan hökumətdən əsas tələbini də ilk dəfə müşavirədə açıqlayıb:** "Korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizə daha ciddi aparılmalıdır. Aprel ayında formalaşmış yeni hökumət qarşısında bu vəzifə çox kəskin qoyulmuşdur. Bu xoşagəlməz hallara son qoyulmalıdır".

Yada salaq ki, bu ilin aprelində keçirilən prezident seçkilərində rəqiblərini böyük fərqlə üstələyən İlham Əliyevin yeni hökumət formalaşdırması uzun müddət mediada təhlil edildi. Bir çox nazirlərin və komitə sədrlərinin işdən uzaqlaşdırılmasının səbəbləri haqda çox versiyalar irəli süründü. Prezident bu müşavirədə həmin çoxsaylı suallara aydınlıq gətirmiş oldu: apreldə korrupsiya ilə mübarizə komandası yaradılıb.

**Müşavirədə dövlət başçısı kadr islahatlarının davamlı olacağını da anons etdi:** "Kadr islahatı aparılır və aparılacaq. Hansı dövlət məmurları bu meyarlara uyğun gəlməyəcəksə, onlar işdən çıxarılacaqlar və bunu bütün dövlət məmurları bilsinlər". Dövlət başçısı "Azərbaycanda bu böyük sosial bəlanın kökü kəsilməlidir. Bunu etmək üçün həm güclü siyasi iradə, həm də indi bizim institusional mexanizmlərimiz var" deyib.

**Prezident "narahatlıq doğuran sahələrdən biri" dediyi inşaat sektoru barədə də sərt danışıb. Heç kimə sirr deyil ki, xüsusən yay aylarında bu cür qanunsuz tikililər vüsət alır, əhalinin ciddi narazılığına səbəb olur.**

"İnşaat işi sahəsində görülən işlər müsbətdir. Ancaq eyni zamanda biz nəyi görürük? Bir çox hallarda aparılan tikintilər heç bir meyara sığmır, nə şəhərsalma meyarlarına, nə tikinti meyarlarına. Bəzən memarlıq baxımından çox eybəcər binalar tikilir. Buna son qoymaq üçün çox ciddi tədbirlər görülməlidir və qanunsuz tikililərə son qoyulmalıdır. Qanunsuz tikililərə şərait yaradan dövlət məmurları çox ciddi cəzalandırılacaqlar. Mən deyirəm, bunu hamı bilsin. Çünki bir çox hallarda bu işləri bir-birinin üstünə atırlar. Şəhər icra hakimiyyəti bələdiyyələrin üstünə, bələdiyyələr şəhər icra hakimiyyətinin üstünə. Amma faktiki olaraq bələdiyyələr şəhər icra hakimiyyətinin icazəsi olmadan belə hərəkət edə bilməz. Ona görə burada vahid bir nəzarət mexanizmi olmalıdır. Bir daha zəbt edir, hasarlayır, o yeri satır və şəhər nəqliyyatını iflic vəziyyətə salırlar.

**İ. Əliyev paytaxt əhalisinin ciddi narazı salan bu cür tikintiləri cinayət adlandırıb:** "Götürüb ictimai yerdə, həyətdə, yaxud da ki, insanların istifadə etdiyi yerdə bina tikmək cinayətdir və bunu edən cavab verəcək".

**Dövlət başçısı "şəhərsalma qaydaların nəqliyyata əngəl törətməməlidir", söyləyib və "biz insanların saatlarla tıxaclarda əziyyət çəkdikləri böyük meqapolislərin vəziyyətinə düşmək istəmirik" deyib. Prezidentin bu hissədə də ritorikası çox sərtdir:** "Biz burada yeni yollar açırıq. Amma hansısa yaramaz bir məmur pul naminə o yeri satır, orada da qanunsuz bina tikirlər. Sonra da dövlət həmin binanın sökülməsi üçün böyük vəsait, kompensasiya verməlidir ki, qanunsuz tikən oradan çıxsın və yol demək istəyirəm ki, ilk növbədə, Bakıda və digər şəhərlərdə bütün qanunsuz tikililərə son qoyulmalıdır".

**Prezident deyib ki, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin rəyi, icazəsi olmadan ölkədə bir bina da tikilməməlidir.** "Kim bunu edəcəksə, dərhal mənə məlumat verilsin. Həmin o adamları ən ciddi cəzalar gözləyir", deyə, İ.Əliyev bildirib.

**Dövlət başçısı paytaxtın icra başçılarına da sərt xəbərdarlıq edib:** "Bakı şəhərində elə yerlər var ki, utanc gətirir. Binalar heç bir qaydaya riayət olunmadan bir-birinin yanında, ictimai yerlərdə, həyətlərdə tikilir. Bu binaların tikilməsinə kim icazə verir?! Yerli icra orqanları. Bu icazəni tələnasızmı verir?! Əlbəttə ki, yox". Prezident deyib ki, rayon icra hakimiyyətləri dayanacağın yerini açılsın. Ona görə çox ciddi tapşırıq verirəm, dövlət orqanları nəticə çıxarsınlar".

Beləliklə, prezidentin müşavirəsində üç mühüm nəticəni belə ümumiləşdirə bilərik. Birincisi, ölkədə prezident nəzarəti güclüdür, xaos və qarışıqlıq yaratmaq istəyən qüvvələr olarsa, istəklərinə çata bilməzlər. İkincisi, İlham Əliyev heç bir xarici və daxili tənqidlərə baxmayaraq, problemlərin olduğu sahələri daha dəqiq bilir, onları dilə gətirir və zərərli tendensiyaları aradan qaldırmaq üçün hazır proqramları var. Üçüncüsü, prezident yenilənmiş hakim komandanı daha fəal olmağa, problemləri aradan qaldırmağa çağırır, qanunsuzluğa yol verən məmurlara isə bəlkə də son xəbərdarlıq edilir...

❑ **"Yeni Müsavat"**

# NATO-nun kritik sammiti başlayır - Azərbaycan hansı səviyyədə qatılacaq?



## Elçin Mirzəbəyli: "Belə tədbirlərdə iştirak ölkəmiz üçün mühüm önəm kəsb edir"

**İyulun 11-12-də Brüsseldə NATO-nun zirvə toplantısı keçiriləcək. NATO-nun zirvə toplantısında Azərbaycandan xarici işlər naziri Elmar Məmmədyarov iştirak edəcək. Azərbaycanın ölkə başçısı səviyyəsində zirvə toplantısında iştirak edib-etməyəcəyi barədə qəzet çapa gedənədək rəsmi informasiya yox idi.**

Ermənistanı isə NATO-nun zirvə toplantısında yeni baş nazir Nikol Paşinyan böyük nümayəndə heyəti ilə (bura xarici işlər və müdafiə nazirləri də daxildir) təmsil edəcək. Artıq Ermənistan mediası hökumətə istinadən məlumat yayıb ki, Paşinyan iyulun 11-12-də Brüsseldə NATO sammitində iştirak etmək niyyətindədir. Erməni mətbuatı yazıb ki, Ermənistan baş nazirinin NATO sammitində iştirakı ölkə üçün çox vacibdir. Ermənistan hökumətindəki mənbəyə istinadən məlumat yayan nüfuzlu media orqanları qeyd ediblər ki, Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) üzvü olsa da, rəsmi İrəvan NATO-nu tərəfdaş təşkilat və ölkənin təhlükəsizliyinin təmin olunmasında etibarlı müttəfiq kimi görür.

Bir sıra ekspertlər hesab edir ki, Rusiyanın özünə bir nömrəli rəqib və təhlükə gördüyü NATO-nun zirvə toplantısına Ermənistanın yeni baş nazirinin qatılması, ümumiyyətlə, İrəvanın bu alyansa meyllənməsi Moskvanı qəzəbləndirə bilər.

**Politoloq Elçin Mirzəbəyli "Yeni Müsavat"a açıqlamasında qeyd etdi ki, Ermənistan rəhbərlərinin NATO sammitlərində iştirakı yeni hadisə deyil:** "Bundan öncəki dövlət və hökumət başçıları da alyansın zirvə toplantılarına qatılırdılar və bu, adətən Rusiya tərəfindən qəzəblə qarşılanmırdı. Çünki Ermənistana manevr imkanları verilməsi Kremlin ənənəvi siyasətidir. Təbii ki, Moskva İrəvanın bəlli bir mərhələyədək Qərb təşkilatları ilə münasibətlərinə qəzəblə yanaşmır, əksinə, müəyyən zaman kəsiyində bu əlaqələrdən Ermənistanın müəyyən dividentlər əldə etməsinə imkanlar da yaradır. Rusiya üçün əsas məsələ bu manevrlərin nəzarətdən çıxmaması və status-kvonu dəyişə bilmək imkanında olmamasıdır.

Bu baxımdan da əsas diqqət Paşinyanın sammitdə iştirakı üzərində deyil, necə iştirak edəcəyi üzərində olacaq. Yəni Nikol Paşinyanın sammit çərçivəsində keçirəcəyi görüşlərə, verəcəyi bəyanatlara diqqət yetiriləcək və buna uyğun da davranış sərgiləcək. Doğrusu, indiki məqamda Paşinyanın NATO sammitində Rusiyanı qəzəbləndirə biləcək hansısa ciddi addımlar atacağını gözləmirəm".

NATO kimi mühüm beynəlxalq təşkilatın sammitində iştirakın Azərbaycan üçün nə qədər əhəmiyyət daşıdığına diqqət çəkən Elçin Mirzəbəyli bildirdi ki, Azərbaycanın sammitdə iştirakı vacibdir: "Amma bu barədə ölkəmizin maraqlarını və mövqeyini ifadə edən qərarı şübhəsiz ki, siyasi rəhbərlik verəcək. NATO sammiti kifayət qədər ciddi bir toplantıdır. Toplantıda üzv və tərəfdaş ölkələrin dövlət və hökumət başçıları iştirak edirlər. Bu baxımdan, sammit eyni zamanda ikitərəfli münasibətlərin müzakirəsi üçün də geniş imkanlar yaradır. Düşünürəm ki, Azərbaycan hər zaman olduğu kimi bu imkandan da istifadə edərək, regionda sülhə və təhlükəsizliyə təhdid yaradan amillər barədə öz mövqeyini bir daha ifadə edəcək".

Xatırladaq ki, ötən il NATO-nun Varşavada keçirilən zirvə toplantısında qəbul edilən yekun sənəddə Azərbaycanın ərazi bütövlüyü dəstəklənmişdi. Alyansın bu addımı o zaman ermənilərin hay-küyünə səbəb olmuşdu. NATO-nun Brüssel sammitində də Azərbaycanın ərazi bütövlüyünə dəstək ifadə edilməsi istisna deyil.

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 148 (7037) 11 iyul 2018

# Səlim Müslümovun vurulmasının səbəbi bilindi

## Dövlət başçısı problemli sahəni göstərdi; “Pozuntular tam aradan qaldırılmalıdır”

**Azərbaycanda prezident seçkilərindən sonra formalaşdırılan hökumət kabinetində əmək və əhalinin sosial müdafiəsi nazirinin dəyişməsi bir çoxları üçün gözlənilməz olmuşdu. Bəzi məlumatlara görə, yeni kabinetdə yer almamağı sabiq nazir Səlim Müslümovun özü üçün də çox gözlənilməz olub.**

Məsələ burasındadır ki, son illərdə S.Müslümov ölkə rəhbərliyinin diqqətində olan məmurlar arasındaydı. Dövlət büdcəsindən istədiyi qədər maliyyə ala bilirdi, irəli sürdüyü təkliflər dəstəklənirdi. Dövlət Sosial Müdafiə Fondu kimi böyük bir qurum onun istəyi ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyinə verilmişdi. Təzə nazir təyin olunduğu dövrdə ona olan ümidlər də böyük idi: illərdən bəri korrupsiyanın tüğyan etdiyi əlilliyin təyinatı sistemində şəffaflıq yaradacağı gözlənilirdi. İlk aylarda bu sahədə müəyyən addımlar da atdı, çoxsaylı tibbi sosial ekspert komissiyalarının (TSEK) rəhbərlərini hamının gözləri qarşısında vəzifədən uzaqlaşdırdı. Nazirliyinin son aylarında isə əlilliyin təyinatı prosesini elektronlaşdırmaq istiqamətində bəzi addımlar atdı. Lakin yeni nazir gələndən sonra məlum oldu ki, S.Müslümovun bu sahədəki fəaliyyətləri görüntü xarakterli olub. Hansısa orta və aşağı ranqlı məmurların çıxarılması yalnız yerdəyişmə məqsədi daşıyıb - korrupsiya mexanizminin əsaslarına toxunulmayıb. Nəticədə bir sıra rayonlarda əlillik alanların sayı ölkə üzrə orta göstəricini xeyli qabaqlayıb, xeyli sayda haqqı çatan insan rüşvət verə bilmədiyi üçün bundan məhrum olub.



Yeni nazir Sahil Babayev isə əlilliyin təyinatı sahəsindəki çox ciddi problemlərə sələfi S.Müslümovdan fərqli yanaşma ortaya qoymaqdadır. Əlilliyin təyininə əsas olan xəstəliklər, onların inkişaf səviyyəsi, insanlara təsiri ilə bağlı dəqiq meyarların hazırlanması üzərində işlər aparılır. Çox yaxın zamanda subyektivizmi maksimum məhdudlaşdıracaq meyarların tətbiq olunacağı gözlənilir. Bu meyarların əlilliyi təyin edən şəxslərin rüşvət alaraq yalançı əlillik kağızları verməl追 qarşısını almaqda mühüm rol oynayacağı proqnozlaşdırılır. Eyni zamanda əlilliyin təyini sahəsində korrupsiya imkanlarını məhdudlaşdıracaq prosedurlar da hazırlanmaqdadır. Yeni nazir bununla uzun illərdir bu sistemdə kök salmış korrupsiya mexanizmini sarsıtmaq niyyətindədir.

S.Müslümovun korrupsiya mexanizmini aradan qaldırmadığı daha bir sahə pensiya təyinatı sistemidir. 2001-ci ildən bu sistemə birbaşa nəzarət onun əlində olub. Onun rəhbərliyi altında pensiya təyinatı sahəsində sadə vətəndaşların pensiya hüququnu məhdudlaşdıran iki böyük islahat reallaşdırılıb. Pensiya təyinatı sistemində elektronlaşdırma aparılsa da, əlilliyin təyinatı sahəsində olduğu kimi, bu sahədə də rüşvət və korrupsiya azalmayıb. Hesablama Palatasının apardığı yoxlamalar göstərib ki, yerli pensiya şöbələrində ölmüş şəxslərə pensiya ödənməsi, bir adamın bir neçə rayondan pensiya alması kimi çox kobud pozuntulara yol verilib. Bundan əlavə, pensiyaların hesablanması prosesində də ciddi maxinasiyalar baş verib. Qanunvericiliyin vətəndaşa tanıdığı az sayda üstünlüklər belə ona rüşvət müqabilində tətbiq edilib.

S.Müslümovun nazirliyi dövründə korrupsiyanın qaldığı daha bir sahə ünvanlı sosial yardımının verilməsidir. Son illərdə bu sahədə olan qanunsuzluqlar barədə şikayətlər getdikcə artırdı, ehtiyacı olan çoxlu sayda insan dövlətin tətbiq etdiyi yardım mexanizmindən kənarda saxlanırdı. Əvəzində real olaraq ehtiyacı olmayanlar ünvanlı sosial yardım alırdılar.

**Prezident İlham Əliyevin cari ilin birinci yarısının sosial-iqtisadi yekunlarına həsr olunmuş hökumət müşavirəsindəki çıxışından aydın olur ki, S.Müslümovun yeni kabinetdə yer almamasının köklü səbəbləri varmış. Sitat:** “Sosial təminat sahəsində də ciddi islahatlar aparılmalıdır. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yeni rəhbərliyi qarşısında belə vəzifələr qoyulub. Bu sahədə buraxılmış səhvlər, pozuntular tam aradan qaldırılmalıdır. Sosial ədalət tam bərqərar olmalıdır və şəffaflıq tam təmin edilməlidir. Dövlət bu sahəyə çox böyük diqqət göstərir və mən dəfələrlə demişəm ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır, xüsusilə sosial cəhətdən az təmin edilmiş vətəndaş. Məhz buna görə biz ünvanlı sosial yardım sisteminə keçmişik. Məhz buna görə yüz minlərlə ailə dövlətdən bu təminatı alır. Ancaq bir çox hallarda vətəndaşların hüquqları pozulur, ədalətsizlik hökm sürür, yardıma ehtiyacı olan yardım almır, yardıma ehtiyacı olmayan yardımı alır və ondan sonra o vəsaiti dövlət məmurları ilə bölüşür. Belə hallar kifayət qədər çoxdur, indi ciddi araşdırma aparılır. Sosial təminat sahəsində tam şəffaflıq təmin edilməlidir, sosial ədalət tam bərqərar olunmalıdır”.

Bu çıxış göstərir ki, məmurların gizli saxlaya bildiklərini düşündükləri bütün əməlləri barədə ölkə rəhbərliyində məlumat olur. Və bu məlumatlılıq nəticəsiz qalmır.

**❑ TURQUT,**
**“Yeni Müsavat”**

# Heydər Əsədova yeni korrupsiya ittihamları- sabiq nazirin yeri bilinmir

## Onun dövründə kənd təsərrüfatına ayrılan milyonlar aidiyyəti üzrə xərclənməyib

**Prezident seçkilərindən sonra formalaşan yeni hökumətin tərkibində yer almayan nazirlərdən biri də kənd təsərrüfatı naziri Heydər Əsədov oldu. Əsədovun 5 illik nazirliyi dönəmində dövlət tərəfindən kənd təsərrüfatı sahəsinə külli miqdarda vəsait ayrıldı. Bura yalnız müxtəlif bitkilərin əkini üçün dövlətin verdiyi dotasiyalar deyil, maşın və texnikanın, damazlıq heyvanların alınmasına, çoxsaylı laboratoriyaların qurulmasına sərf olunan yüz milyonlarla manat dövlət vəsaiti də daxil idi.**



Bütün bunlarla bağlı hələ nazirin dövründə mətbuatda kənd təsərrüfatı sahəsində ciddi nöqsanların olması barədə çoxsaylı yazılar dərc olunurdu. Heydər Əsədov nazir vəzifəsindən uzaqlaşdırıldıqdan sonra isə məlum oldu ki, yazılanlar, sadəcə olaraq, aysberqin görünən tərəfi imiş.

Bu günlərdə Kənd Təsərrüfatı Nazirliyi bölgələrə mediatur təşkil etmişdi. Həmin turda müşahidə etdik ki, sahibkarların çoxu sabiq nazirin fəaliyyətindən, onlara olan münasibətindən narazı olublar. Sahibkarlar yeni nazirin fəaliyyətindən razılıqlarını bildirib, Heydər Əsədovun onların başına gətirdiyi problemlərdən danışdılar. Məsələn, öz əziyyəti ilə arıçılıq təsərrüfatı yaradan, hazırda həm də Arıçılar Assosiasiyasının prezidenti olan Bədrəddin Həsrətov söylədi ki, ona çox böyük çətinliklər yaradıblar. Hazırda təsərrüfat qurduğu sahədə vaxtilə çoban kimi çalışdığını söyləyən Bədrəddin Həsrətov bütün təsərrüfatının biznes-planını elə çoban olan zaman, çomağına söykənərək qurduğunu bildirdi. Lakin Həsrətovun sözlərinə görə, onun əziyyətlə qurduğu təsərrüfata Əsədovun dönəmində böyük əngəllər törədilib. **Həsrətov modern.az saytına bu barədə aşağıdakıları bildirib:** “Heyvandarlıq məhsullarının istehsalı, emalı, damazlıq işi və otlaqlar şöbəsinin müdiri olmuş Çingiz Fərəcovun dövründən sərgilər başqa istiqamətlərə yönəlməyə başladı. Hətta sərgilərin birində polislər məni bayıra çıxardılar. Çünki insanlara zir-zibil almağa imkan vermirdim. Bal yarmarkasında çox böyük maxinasiyalar gedirdi. Bu il qismən qarşısı alınsa da, yenə də tam nail ola bilmədik”.

**B.Həsrətov bu məsələlərlə bağlı eks-nazir Heydər Əsədovun qəbulunda olduğunu vurğulayıb:**

“Bu problemlərlə bağlı məni qəbul edirdi, fikirlərimi dinləyirdi, deyirdi ”oldu, yaxşı". Amma mən qapıdan çıxandan sonra komandasına “assosiasiyalara imkan verməyin” göstərişini verirdi. Hər yerdən yollarımızı kəsirdilər, qısqanclıq vardı. Subsidiya məsələsi niyə bu günədək gecikir? Biz təklif verdik ki, arı ailələrinin sayılma prosesində assosiasiya nümayəndəsi də iştirak etsin. Amma nazirlik buna razı olmadı, çünki biz olan yerdə maxinasiya edə bilmirdilər. Bugünədək mübarizədə olmuşuq. Amma inanıram ki, yeni nazir İnam müəllim bizə dəstək olacaq".

Oxşar fikirləri mediatur zamanı digər sahələr üzrə sahibkarlar da dilə gətirib, Əsədovun nazirlik fəaliyyətindən narazılıqlarını bildirdilər.

“Yeni Müsavat”a daxil olan məlumata görə, texnikaların alınması üçün Əsədovun dövründə ayrılan vəsait də aidiyyəti üzrə xərclənməyib. Nəticədə bu gün sahələrdə kombayn və digər texnikalar çatışmır, fermerlər əziyyət çəkirlər.

**Məsələ ilə bağlı ötən günlərdə virtualaz.org saytında da məlumat dərc olunmuşdu. Belə ki, “Aqrolizinq” Səhmdar Cəmiyyətinin şöbə rəisi İsrafil İsmayılov demişdi ki, bu il hava şəraiti ilə əlaqədar çovdar yığımı adi vaxtlarda olduğundan tez başladı:** “Fermerlər çovdarı buğda ilə birlikdə yığmağa başladılar. Və gözlənilməz hadisələrlə əlaqədar kəndlərdə kombaynların çatışmazlığı hiss olunur. Azərbaycana bu il 260 kombayn gətirilməli idi, ancaq bu günə cəmi 110-u idxal edilib. Buna görə biz daha 150 kombaynın çatdırılmasını gözləyirik” - deyə İ.İsmayılov bildirib.

Tez-tez adı maxinasiyalarda hallanan Heydər Əsədovun isə hazırda harada olduğu bilinmir. Məlumatlara görə, Əsədov vəzifəsini itirdikdən sonra ciddi depressiya yaşayır. Buna görə də mətbuata heç bir açıqlama vermək istəmir.

**Əsədovun nazirlik dönəmində onu ən çox tənqid edənlərdən biri olan MMP sədri Hafiz Hacıyev “Yeni Müsavat”a bildirib ki, sabiq nazirin harada olduğundan məlumatlıdır:** “Əsədov kənd təsərrüfatını iflic edib, milyardlar qazanan adamdır. Bu gün də xaricdə oturub, kef edir. Nə üçün kombayn çatışmır? Nə üçün fermerlərin taxılları yerdə qalıb? Bunlar hərə görünənlərdir. Əslində isə kənd təsərrüfatında çatışmazlıqlar xeylidir. Ancaq çox təəssüf ki, onları müdafiə edən qüvvələr hələ də var və imkan vermirlər ki, bu kimi adamların oğurladıqları milyardlar dövlətə geri qaytarılsın. Hazırda Əsədov xaricdəki villasındadır. Orada oturub, Azərbaycanın əleyhinə xoşagəlməz qruplar formalaşdırır. Bu kimi tənqidi fikirlərimi söyləyən zaman deyirlər ki, Əsədov Hafiz Hacıyevə vəzifə vermədiyi üçün belə danışır. Mənə vəzifə lazım deyil. Hamı kimi yaşamağa öyrəşmiş adamam. Düşünmürəm ki, onların atdıqları hər doğru olmayan addım Azərbaycan dövlətinə, birinci şəxsinə vurulan zərbədir. Bu adamları ancaq pul düşündürür. Heydər Əsədov həbs edilməlidir. O, nazir olduğu zaman arıçıların da balına şərik idi. Yarmarkada satılan ballardan haqq alırdı. Bu cür məsələləri açdığım zaman mənə çox təzyiqlər edirdilər. Artıq kənd təsərrüfatına ayrılan milyardlarla vəsaitin hamısı batıb-gedib. Nə texnika var, nə də digər avadanlıqlar. Ona görə də Əsədov bütün bunlardan canını qurtarmaq üçün xaricə qaçıb. Vaxtilə maliyyələşdirdiyi insanlarla planlar cızır, telekanal açırlar. Düşünürlər ki, nə zamansa kimsə hakimiyyətə gələr, onda geri dönərlər”.

**❑ Əli RAİS,**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 148 (7037) 11 iyul 2018

**Gəncənin icra başçısı Elmar Vəliyevin güllələnməsi, bu hadisənin ətrafında cərəyan edən motivlər ölkə gündəminin əsas mövzularından biri olmaqda davam edir. Hadisəyə verilən reaksiyalar da müxtəliflik təşkil edir. Bu ərəfədə Gəncənin sabiq deputatı, Abbas Abbasovun oğlu Aydın Abbasovun hadisəyə verdiyi reaksiya xüsusi diqqət çəkdi. Belə ki, sabiq deputat düşmənçilik həddində olduğu Elmar Vəliyevin güllələnməsinə iki bənd şeirlə sevinirmiş kimi münasibət bildirib. Onun facebook-da paylaşdığı bu 2 bənd şeirdə gəncəlilərə xəyanətdən və buna görə cəzadan söz açılır:**

# Abbas Abbasovun Gəncədəki biznes imperiyası necə çökdürülüb-təfərrüat

## Bu şəhərin sabiq deputatı Aydın Abbasovun icra başçısı olayına reaksiyasının səbəbi üzə çıxır...



*"Gəncə xəzinədir əzəl binadan,*
*Qədir bilməyənə Gəncə qənimdir.*
*İndi gəncəlilər dursa kənarda,*
*Hər gələn deyər ki, Gəncə mənimdir.*
*Gəncəni sevənə Gəncə gencədir,*
*Ədalət hər şeydən burada öncədir.*
*Kim etsə xəyanət gəncəlilərə,*
*Qisməti ya möhnət, ya işgəncədir!"*

"Bəs Abbasovlar niyə qəzəblidirlər" sualının cavabını Gəncədə çoxları bilir. Xatırladaq ki, Abbas Abbasov 1992-ci ildən 2006-cı ilədək ölkənin baş nazirinin birinci müavini vəzifəsində çalışıb. Aydın Abbasov isə 2005-2015-ci illərdə Gəncə şəhəri üzrə 37 saylı Nizami seçki dairəsindən iki dəfə deputat olub.

Vəzifədə olduqları müddətdə Abbasovlar ailəsi Gəncədə böyük biznes imperiyasına malik olub. İddialara görə, bura elektrik avadanlıqlarının, tikinti materiallarının istehsalı, onların topdan və pərakəndə satış mərkəzləri, tikinti obyektləri, Türkiyədəki şirkətlərinin filialları daxil idi. Deyilənə görə, bu biznes imperiyası Gəncənin sabiq icra başçısı Eldar Əzizovun dövründə daha da çiçəklənib. Səbəb isə Abbasovlarla sabiq icra başçısı arasındakı yaxşı münasibətlər olub. Belə ki, Abbas Abbasov vəzifəsi dövründə E.Əzizovun vəzifə pillələrində irəliləməsinə dəstək olub, onun şəhərin icra başçısı vəzifəsinə gətirilməsində xüsusi canfəşanlıq edib.

Lakin 2011-ci ilin fevralında Elmar Vəliyev Eldar Əzizovu əvəzlədikdən sonra vəziyyət dəyişməyə, Abbasovların biznes imperiyasına zərbələr dəyməyə başladı. Elə həmin il mətbuatda Abbasovlara məxsus, qiyməti 1,5 milyon manat dəyərləndirilən özəl mülkün yerlə yeksan edildiyi barədə məlumatlar yayıldı. Sonradan məlum oldu ki, həmin mülk Mədəniyyət Nazirliyinin balansında olan "Yaşıl teat"rın binasıdır. Deyilənə görə, Abbas Abbasov mülkünün uçurulduğu barədə ən son xəbər tutub. Olaydan bir neçə gün əvvəl isə Abbasovla Elmar Vəliyev arasında bu məsələ ilə bağlı söhbət olub. İcra başçısı şəhəri abadlaşdıracağını və bu binanın ərazinin görkəmini pozduğunu əsas gətirərək onu sökməkdə qərarlı olduğunu bildirib. Nəticədə tərəflər arasında böyük mübahisə düşüb. Hətta məsələyə dair ölkə rəhbərliyinə də məlumat çatdırılıb. Lakin Vəliyev öz dediyində qalaraq binanı uçurdub.

Aydın Abbasov bu məsələyə münasibət bildirərkən həmin obyektin onlara hər hansı bir formada aid olmadığını demişdi. Əksəriyyət onun açıqlamasının gözlənilən olduğunu bildirirdi. Çünki qanunla deputat bizneslə məşğul ola bilməz. Bu səbəbdən onun mülkün onlara aid olduğunu inkar etmək məcburiyyətində qaldığı deyilirdi.

Bir faktı da qeyd edək ki, "Yaşıl teatr" Gəncədə Qafqazın və Azərbaycanın ən qədim parklarından biri olan "Xan Bağı"nın ərazisində yerləşirdi. Sovet dövründə musiqiçilərin və musiqisevərlərin sevimli konsert məkanına çevrilən teatr 1989-cu ildən fəaliyyətini dayandırmışdı. Beləliklə, şəhərin məşhur "Xan Bağı"nın bir guşəsində yerləşən teatr uzun müddət fəaliyyətsiz qaldığından bərbad vəziyyətə düşmüşdü. Bu isə bağın görkəminə təsirsiz ötüşmürdü.

2006-cı ilin dekabrında mədəniyyət naziri Əbülfəs Qarayev Gəncədə olarkən teatrın binası ilə tanış olmuş və binanın təmir olunması ilə bağlı təkliflər etmişdi. Həmin vaxt mətbuatda yayılan məlumata görə, təmir üçün 500 min ABŞ dolları məbləğində vəsait tələb olunur. Həmin illərdə "Xan Bağı" və onun ətrafındakı binalar təmir edilməsinə baxmayaraq bağın bir guşəsində yerləşən bu bina təmin edilməmiş qaldı. Üstəlik, binanın ətrafı hərbi brezentə oxşar materialla hasarlı vəziyyətdə idi. Binanın hansı səbəbdən təmir edilmədiyi məsələsinə gəldikdə isə iddialar var idi ki, bu bina özəl mülkdür, Abbasovlar tərəfindən özəlləşdirilib.

2013-cü ildə prezident seçkiləri ərəfəsində A.Abbasovun "Milyarderlər İttifaqı" yaradaraq rəsmi Bakıya müxalifət olması hakimiyyətlə münasibətlərini pozdu. Bundan sonra E.Vəliyev Abbasovların Gəncədəki dayaqlarını tamamilə çökdürməyə, obyektlərini əlindən almağa, bizneslərini sıfırlamağa başladı.

Digər məlumatlara görə isə 2013-cü ildə Elmar Vəliyevin göstərişi ilə deputat toxunulmazlığı daşımasına baxmayaraq, Aydın Abbasov Gəncə polisi tərəfindən saxlanılıb, təhqirlərə məruz qalıb. Bakının müdaxiləsindən sonra Aydın Abbasov bir daha Gəncəyə ayaq basmamaq şərti ilə sərbəst buraxılıb.

Beləliklə, 2013-cü ildən başlayaraq Abbasovlarla Elmar Vəliyevin münasibətləri düşmənçilik həddinə çatıb. Bu baxımdan Aydın Abbasovun Elmar Vəliyev olayına ironik münasibət bildirməsi təsadüfi deyil...

❑ **Xalidə GƏRAY, "Yeni Müsavat"**

# Azərbaycanlı milyonçunun 690 milyonu İsveçrə bankında batır

## Musa Nağıyevin varisləri: "Bankda bizdən kod istəyirlər, biz isə bilmirik"




**Azərbaycanın məşhur neft milyonçusu Musa Nağıyevin İsveçrə bankında 413 milyon qızıl pullarının qaldığı məlum olub. Bank həmin pulları milyonçunun yalnız varislərinə verə biləcəyini bildirib. Varislər ortaya çıxsa da, bank kod tələb etdiyindən Nağıyevin milyonları bankda qalmaqda davam edir. Milyonçunun nəvəsi, Rusiya vətəndaşı Dilarə Nağıyevanın sözlərinə görə, atası Fərəc Nağıyev deyib ki, Musa Nağıyev pulları xarici banklara yatırıb:**

"Babam bu pulları Bakı və Rusiya banklarında saxlamaq istəsə də, onlar qəbul etməyiblər. O da məcbur olub İngiltərə və İsveçrə banklarında yerləşdirib. Bankda bizdən kod istəyirlər, biz isə bilmirik. 1938-ci ildə həmin banklardan atama çek göndəriblər ki, gəlin pulları alın. Amma DTK-da bundan xəbər tutub, atamı incidiblər. Çeki ona yedizdirib, sonra da 7 saat ac saxlayıblar ki, çek həzm olunsun. Ona görə də pulu ala bilmirik. Amma Azərbaycanın adından dövlət olaraq müraciət edib pulu geri qaytara bilərik".

Nağıyevlər ailəsi onu da bildirib ki, tək istəkləri onun varidatını xarici banklardan geri almaq və həmin pula Bakıda iki bina tikdirməklə Musa Nağıyevin 100 binanın sahibi kimi adını tarixə salmaqdır.

Xatırladaq ki, Ağa Musa Nağıyev Bakıda 98 bina tikdirib. İddialara görə, o, pulunun böyük əksəriyyətini İsveçrə bankına qoyduqdan sonra ona xüsusi kod verilib. Qanunlara görə, İsveçrə bank sistemində kodu bilməyən müştəri əsla oradan pul çıxara bilməz. Şayiələrə görə, həmin kod xaç formasında olan açarın üzərinə həkk olunub.

Maraqlıdır, Nağıyevin varisləri kod olmadan qızıl pulları geri ala bilərmi? Və yaxud bu pulları Azərbaycan hökuməti almalıdırmı?

**Hüquqşünas Əkrəm Həsənov mövzu ilə bağlı "Yeni Müsavat"a danışıb:** "Vərəsəlik məsələlərində ilk növbədə diqqət edilməlidir ki, hansı qanun tətbiq olunmalıdır. Burada əsasən, miras qoyanın öldüyü vaxtın və yerin qanunu qoyulmalıdır. Musa Nağıyev 1919-cu ildə, ADR-in dövründə dünyasını dəyişib. Çox güman ki, həmin dövrdə ölkəmizdə Rusiya qanunları tətbiq edilib. Dünyada qəbul edilmiş ümumi qanun budur ki, daşınmaz əmlakı onu miras kimi tələb edəndə olduğu ölkənin qanunu ilə tələb etmək lazımdır. Lakin daşınmaz əmlakdırsa, onda mirasçının öz ölkəsinin qanunu ilə həll etmək lazımdır. Yəni bu məsələdə İsveçrə bankından ADR dövründəki qanunla pulları geri istəmək lazımdır. Düşünürəm ki, Musa Nağıyevin varisləri bu barədə İsveçrə məhkəməsinə müraciət etməlidir. Məhkəmə artıq bankı məcbur etməlidir ki, kod lazım deyil. Məlum məsələdir ki, varisləri həmin kodu bilə bilməzlər. Burada Azərbaycan hökuməti varislərə yalnız köməklik edə bilər. Lakin məsələnin İsveçrə məhkəməsi həll etməlidir".

Daha bir maraqlı fakta əsasən Sankt-Peterburqda buraxılan kataloqda məşhur milyonçunun ümumi sərvəti 690 milyon qızıl pul olaraq göstərilib. Məlumatlara görə, Nağıyev, sadəcə, 413 milyon pulunu xarici banka köçürüb, geridə qalan 277 milyon qızıl pulu isə Bakıda dənizkənarı yerlərin birində xüsusi olaraq düzəldilən anbarda saxlayıb. Anbarın kodunu isə yalnız milyonçunun özü bilib. Xaç formasında açarın da həmin anbarda saxlanıldığı deyilir. Anbarın harada olması barədə məlumat yoxdur. Şayiələrə görə, sovet dövründə çoxlu sayda qızıl axtaranlar onun yerini tapmağa çalışıb, lakin buna nail ola bilməyib.

❑ **Xalidə GƏRAY, "Yeni Müsavat"**

## Azərbaycanın qızıl və gümüşü yerli bazarda da satılacaq

**"Dağ-mədən hasilat sahəsinin inkişafı istiqamətində "AzerGold" QSC-nin ilk hədəfi Daşkəsəndə yerləşən Çovdar qızıl mədəninin fəaliyyətinin bərpası, yerli əhalinin işlə təmin olunması və gəlirlərin formalaşdırılması olub".**

Bunu iyulun 8-də prezident İlham Əliyevin sədrliyi ilə keçirilən Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasda "AzerGold" QSC-nin sədri Zakir İbrahimov deyib.

O qeyd edib ki, bu məqsədlə qısa müddət ərzində müxtəlif təyinatlı təmir-tikinti işləri təşkil edilib, mədənin fəaliyyəti bərpa olunub, optimallaşdırılıb, istehsalat 24 saatlıq iş rejiminə keçirilib, işçilərin iş şəraiti təkmilləşdirilib, aktiv hasilat işlərinə başlanılıb və bu işlər bu gün də uğurla davam etdirilməkdədir.

Z.İbrahimov onu da vurğulayıb ki, qiymətlilərin beynəlxalq bazarda satışı ilə yanaşı, yerli bazarda da Azərbaycanın qızıl və gümüşünün satışının həyata keçirilməsi və ixracdan asılılığının azaldılması üçün cəmiyyət tərəfindən səylər göstərilməkdədir: "Bu ildən etibarən Azərbaycan Respublikasının Dövlət Neft Fondu cəmiyyətin hasil etdiyi qızılı alacaq və ölkənin qızıl ehtiyat fondu həm də Azərbaycan qızılı hesabına formalaşacaq".

YENİ MÜSAVAT
N 148 (7037) 11 iyul 2018



# Düşmən şəbəkə

Zamin HACI
zaminhaci@gmail.com

"Biz icazə verə bilmərik kərgədanlar pişiklərimizi tapdalasınlar"

*(Ejen İonesko, "Kərgədan" pyesindən)*

**Biz Qərbin yaxşı cəhətlərini götürüb, pis tərəflərini atmalıyıq, ancaq bəzən mümkün olmur. İndi işıqların sönməsi, icra başçısına terror əhvalatlarının məntiqi yekunu bunu göstərmişdir. Hüquq-mühafizə orqanlarımız feysbukda şərh yazan, sayt qayırıb cızmaqara edən xeyli şəxsi - ilkin, təqribi hesablamalara əsasən 70 nəfərə yaxındırlar - dama basmışdır. Sən demə, bunlar Mark Zukerberqin göstərişi ilə, xaricdə yaşayan, o cümlədən Silikon vadisində gizlənmiş havadarlarının əli ilə Azərbaycanda sabitliyi pozmağa cılız cəhdlər göstərmiş, toku kəsərək başçıya güllə atmışlar.**

Burada mühüm qeyd edim ki, şəxsən mənim bu Zukerberq adlı tipdən çoxdan gözüm su içmir və həmçinin müvafiq orqanlarımızın ata məsləhəti, qardaş qayğısı, bacı öyüdü sayəsində düz bir ildir bunun şəbəkəsindəki profilimi bağlamışam. Çünki mən bilirdim bu işlərin axırı yaxşı olmayacaqdır. Əgər sən xalqını sevirsənsə, normal işıq şəbəkəsinə qoşul. Sosial şəbəkədə nə işin var? Şəbəkə sözü şəbədə sözündən yaranıbdır. Elə Zukerberqin özünün soyadı "zuker" - şəkər və "berq" - dağ anlamını verən alman sözlərini bildirir. (Markın əsli Almaniya tərəflərdən yəhudilərdir, burada Almaniyanın dağıldığını da bir daha yazmalıyıq). Şəkər dağı. Məncə, bu, şifrələnmiş bir antimilli təxribatdan xəbər verir, çünki hazırda bizim İmişli Şəkər Zavodu istehsal gücünü artırır, Ümumi Daxili Məhsulun tərkibində şirinçay tədarükünə görə Çinlə rəqabətə girmək üzrəyik. Deyə bilərsiniz buna Çinin dəxli var? Deyin. Mən də qabaqlar elə bilirdim dünya belə gəlib belə gedəcəkdir. Zukerberqin arvadı Çin əsilli Prissilla Çan adlı bir zənəndir. Mark arvad qohumlarının təsiri ilə Azərbaycanın dünyada artan gücünə xələl gətirmək, yenidən Çini dünya lideri eləmək istəyir.

Burada tarixə ekskurs eləsək, "Yeddi oğul istərəm" filmində Cəlalın atasının adı Şəkər bəy idi. Şəkər bəy Gəray bəyin dostu olmuşdu, bu baxımdan dostunun oğlu Cəlalın bolşeviklər tərəfə keçməsini bağışlaya bilmirdi, axırda Kələntərə dedi vur öldür bunu, millət dincəlsin. Əlbəttə, tarixini unudan millətlər onu yenidən yaşamağa məcburdur.

Ancaq əlbəttə, onlar - xaricdən maliyyələşən, şəbəkələşən qara qüvvələr bizim hüquq-mühafizə orqanlarımızın gücünü öncədən, lazımınca qiymətləndirməkdə çətinlik çəkmişlər, nəticəsi də ortadadır. Yəqin bunların twitterə, odnoklassnikə, başqa internet saytlarına uzanan qolları vardır, ümid edirik tezliklə hamısı tutulub cəmiyyətdən kənar ediləcəkdir. Hətta yaxşı olar bütün internet bağlansın, yalnız bir AzTV qalsın. Sovet vaxtındakı kimi. Nəticədə işıq da sönməz. SSRİ elə asudə dövlət idi ki, hətta Atom Elektrik Stansiyası partlayırdı, ancaq camaat onu söndürməyə lapatka ilə gedirdi. Yalnız 1996-nın yayında hər yerdə xiyar tağları saralıb-solanda hamı dedi ki, deyəsən, radiasiya çoxalıb, xiyar buna görə əyri bitir.

O cümlədən heç o vaxt hansısa raykoma güllə atan var idimi? Yox idi. Gülləni Əfqanıstanda, Anqolada, Kubada və sairə yerlərdəki sosializm düşmənlərinə atırdıq.

İndinin özündə belə müstəqil informasiya siyasəti yürüdən dövlətlər qalır. İkisi elə qonşumuzdur. Türkmənistanda arxadağ (prezidentin rəsmi titulu belədir) Qurbanqulu müəllimin göstərişi ilə peyk antenləri camaatdan yığılır. Bundan başqa, 40 yaşa qədər kişilərin ölkədən qaçmasını önləmək üçün sərhəd xidməti daim ayıqdır. İranda isə rəqs eləyib İnstaqrama video qoyan zənən xeylaqlarını tutub şallaqlayırlar. Bəh-bəh... Bizə də belə qaydalar lazımdır. Düzgün arvad nə üçün rəqsini sayta qoysun? Buna naməhrəm kişilər baxanda günah olur. Hətta bir çox alimlərin araşdırmalarına görə arvadların kəkilini açıb gəzməyinin Yerin titrəməsinə təsiri varmış. Doğrudan da qəşəng arvadlar var ki, çarşabsız gəzməyə çıxanda yer-göy titrəyir, zəlzələ olur, tufan qopur. Şair məhz bu məqamda aldı görək nə dedi: "Deyil bihudə gər yağsa fələkdən başimə daşlar, Binasın tişeyi-ahimlə viran etdiyimdəndir". Ah, vah. Yəni, şair demək istəyir ki, sosial şəbəkələr, internet inkişaf eləsə göydən daş yağacaqdır, hələ işığın sönməyinə şükür edəcəksiniz.

İndi söz ələqədar təşkilatlarındır.



# Paşinyan "Rus NATO-su"na daş atıb NATO sammitinə getdi

## KTMT-nin baş katibi, Rusiyanın sadiq adamı sayılan general Xaçaturov İrəvana istintaqa çağırıldı - kritik gəlişmə; Kremlin başqa bir adamı - "quyruğu" qapı arasında qalan Robert Köçəryan isə öz generallarını ələ verdi; Putinin cavabı nə olacaq?...

**Bu gün - iyulun 11-də Brüsseldə NATO-ya üzv ölkələrin başçılarının iki günlük sammiti öz işinə başlayır. Sammitə Ermənistanın baş naziri Nikol Paşinyan da dəvətlidir. Artıq məlumdur ki, dəvət məmnuniyyətlə qəbul edilib. "Yeni Müsavat" erməni qaynaqlarına istinadən xəbər verir ki, dünən Nikol Paşinyanın böyük bir nümayəndə heyəti ilə Belçika paytaxtına yola düşməsi gözlənilirdi.**

Avropaya ilk rəsmi səfər çərçivəsində onun NATO baş katibi Yens Stoltenberq, habelə Avropa Birliyi (AB) rəsmiləri ilə, o cümlədən AB-nin xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali komissarı Federiko Moqerini ilə görüşləri nəzərdə tutulub.

Rəsmi İrəvan həmin görüşlərə xüsusi önəm verir və bunu gizlətmir də. Belə ki, həm qərbyönlü Paşinyanın özü, həm də köməkçiləri səviyyəsində bir neçə dəfə bəyan edilib ki, Ermənistan NATO-ya artıq özünün mühüm təhlükəsizlik qarantı kimi baxır və bu yöndə ikitərəfli əməkdaşlığı dərinləşdirmək niyyətindədir. Bu isə o anlama gəlir ki, Ermənistan Qərbdən lazımi zəmanət alacağı təqdirdə Rusiyanı istənilən an NATO və ABŞ-a dəyişə bilər.

Təbii ki, Rusiyada da Ermənistan ətrafında prosesləri diqqətlə izləyirlər. Ələlxüsus Paşinyanın Brüssel ziyarəti və orada veriləcək birgə bəyanatlar, rəsmi İrəvanın Qərbə reveransları şübhə yox ki, Kreml tərəfindən mikroskop altında analiz edilib nəticə çıxarılacaq.

*****

Yeri gəlmişkən, NATO sammitinin gündəliyində "Rusiya aqressiyası" mövzusu da var. Bununla bağlı Gürcüstan və Ukrayna prezidentləri də Brüsselə dəvət olunub. Alyansa üzv ölkələrin liderləri onların hər ikisi ilə görüşəcək. Bundan əlavə, Gürcüstan, Ukrayna və NATO-nun Rusiya işğalı ilə bağlı birgə bəyanatı qəbul ediləcək.

Ermənistana gəlincə, elə birinci paradoks da budur ki, Rusiyanı haqlı olaraq işğalda suçlayıb sanksiyalar tətbiq edən Qərb postsovet məkanındakı başqa bir işğalçı ölkəyə - Ermənistana və onun baş nazirinə Rusiya kimi sanksiya siyasəti tətbiq eləmək əvəzinə, erməni işğalına göz yumur, ona qucaq açır, sammitə qatılmaq üçün xüsusi dəvət göndərir. "İkili standart" siyasəti yəni.

Ümid edək ki, qardaş Türkiyənin prezidenti Rəcəb Tayyib Ərdoğanın ali toplantıda iştirakı Azərbaycan əleyhinə hansısa məkrli yanaşmaları önləyəcək və NATO-nun bu dəfəki yekun bəyannaməsində də Dağlıq Qarabağ konflikti ilə bağlı ədalətli mövqe əks olunacaq. Erməni tərəfinin arzusu gözündə qalacaq...

*****

Maraqlıdır ki, sanki Rusiyaya acıq verirmiş kimi Brüsselə yollanan Nikol Paşinyan gethagetdə, üstəlik, Kremlin "bostanına" daş atıb. Məlum olub ki, "Rus NATO-su" və ya "Putin İttifaqı" adlanan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) baş katibi Yuri Xaçaturov Ermənistan Xüsusi İstintaq Xidmətinə dəvət edilib. Bu barədə məlumatı qurumun özü yayıb.

Xaçaturovun 2008-ci il 1 mart qanlı hadisələri ilə bağlı şahid kimi dindiriləcəyi bildirilir (**həmin vaxt prezident seçkilərinin saxtalaşdırılmasına etiraz edən 10 dinc nümayişçi güllələnərək öldürülüb**). Onun iyulun sonuna qədər istintaqa ifadə verəcəyi deyilir.

"Yeni Müsavat" xatırladır ki, Xaçaturov 1 mart hadisələri zamanı Ermənistan Silahlı Qüvvələri İrəvan qarnizonunun rəisi vəzifəsini tutub. S.Sərkisyanın prezident olmasından sonra o, Ermənistan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi olub. Erməni general bilavasitə Moskvanın adamı sayılır və İrəvandan çox Kremlə sadiqliyi ilə tanınır. Onun KTMT-yə baş katib gətirilməsində (2017) bu amil mühüm rol oynayıb.

Ancaq indi aydın olur ki, Moskvanın şübhəli nəzərlərlə baxdığı Paşinyan Kremlə sadiq generalı hətta həbsə atdıra bilər. Daha betəri, bununla Paşinyan 1 mart hadisələrində Moskvanın da əlinin olduğuna işarə vurur. Bu, artıq Kremlə əlcək atmaqdır.

*****

Yeri gəlmişkən, Paşinyan Rusiyanın başqa bir adamını - 1 mart hadisələri zamanı Ermənistan prezidenti vəzifəsini icra eləmiş Robert Köçəryanı da təqib edir. O da ifadə vermək üçün istintaqa çağırılıb. Vəziyyətin gərgin olduğunu duyan Xocalı canisi isə Ermənistanı tərk edib. Deyilənlərə görə, Rusiyadan, Putindən siyasi sığınacaq almağa çalışır. Təbii ki, ittihamları da rədd edir.

**"Ermənistanda 1 mart hadisələri zamanı tətbiq edilən zorakılıq haqqında əmri prezident yox, müdafiə naziri verib". Bunu Köçəryan "Yerevan Tudey" qəzetinə verdiyi yazılı müsahibədə bildirib (axar.az). Onun sözlərinə görə, məhz Ermənistanın o vaxtkı müdafiə naziri Mikayıl Arutyunyan ordunun etirazçılar üzərinə yeridilməsi haqqında məxfi N0038 əmrini verib.**

"Bu, daxili sənəddir və atılan addımlar müdafiə nazirinin səlahiyyətləri çərçivəsindədir. O zamankı konstitusiyaya görə, icraedici hakimiyyət müdafiə və təhlükəsizlik sferasında siyasətin reallaşmasını təmin edir, müdafiə naziri prezidentdən icazə almadan hərəkət etmək iqtidarına sahibdir. Müdafiə nazirini öz vəzifəsini yerinə yetirməkdə ittiham etmək absurddur", - deyə Köçəryan bildirib.

**O, 1 mart hadisələri zamanı silah tətbiq edilmədiyini və ordu bölmələrinin xalqla toqquşmalarda iştirak etmədiyini söyləyib. Köçəryan həmçinin 2008-ci il seçkisindən sonra hərbçiləri siyasi proseslərdən uzaq tutmağa çalışdığını bildirib. Həmin ilin 23 fevralında silahlı qüvvələrin rəhbər heyəti ilə keçirdiyi görüşdən danışan Köçəryan bunun cəmi yarım saat çəkdiyini bildirib və özünü yenə təmizə çıxarmağa çalışıb:** "Ordu seçki sonrası proseslərə cəlb edilirdi. Mən ordunun siyasi proseslərə cəlb edilməsinin mümkünsüzlüyünü deyir, generallardan, o cümlədən "Yerkrapa" təşkilatının rəhbər heyətindən tələb edirdim ki, mövqelərini müəyyən etsinlər".

*****

Ancaq bu qəbildən açıqlamalara rəğmən, aydındır ki, ölkə prezidenti kimi o, baş vermiş qanlı hadisəyə görə yaxasını məsuliyyətdən kənara çəkə bilməz. "Quyruğu qapı arasında qalan" Xocalı hərbi canisi isə özünü xilas üçün generalları ələ verir. Tipik erməni gedişi yəni. Qalır indi bütün bunlara, o sırada NATO sammitinə yollanarkən "Rus NATO-su"na daş atan Paşinyanın hərəkətlərinə Kremlin hansı reaksiyanı verəcəyi...

❑ **"Yeni Müsavat"ın analitik xidməti**

**Rusiyanın bir qrup ekspertinin iştirakı ilə Qarabağ bölgəsində-Cəbrayılın Cocuq Mərcanlı kəndində keçirilən konfransda və ondan sonra Ermənistanın işğalına qarşı çıxışların edilməsi İrəvanda və Rusiyadakı ermənipərəst qüvvələrdə kəskin qıcığa səbəb olub. Ancaq maraqlısı budur ki, hətta açıq şəkildə təqib olunmalarına baxmayaraq, Azərbaycanın dostları olan rus ekspertlər mövqelərindən geri çəkilməyərək, ədalətli yanaşmalarını davam etdirirlər.**



# Qarabağa görə Yeltsini günahlandıran rus politoloqun fikri etiraz doğurdu

## Ekspertlər hesab edir ki, Putin Rusiyasının Ermənistana təsir imkanları Yeltsin Rusiyasının imkanlarından çoxdur

Belə ki, ötən həftə rusiyalı tanınmış ekspert və teleaparıcı Maksim Şevçenko videomüraciətində bir sıra maraqlı məqamlara toxunub. O deyib ki, Azərbaycan torpaqları Boris Yeltsin hakimiyyəti dövründə işğal olunub. Doğrudur, Azərbaycanın Dağlıq Qarabağ və ətraf rayonları məhz SSRİ-nin birinci və sonuncu prezidenti Mixail Qorbaçovun və Rusiyanın ilk prezidenti Boris Yeltsinin dövründə işğal olunub. Ancaq üstündən onilliklər keçəndən sonra verilən bu açıqlama ilə rusiyalı politoloq sanki Rusiyanın hazırkı hakimiyyətini sığortalamağa çalışır. Hər halda, Rusiyanın hazırkı prezidentinin bir işarəsi yetərlidir ki, Ermənistan işğal etdiyi əraziləri tərk etsin, amma bunu etməyib.

**Politoloq Arzu Nağıyev "Yeni Müsavat"a açıqlamasında son vaxtlar rusiyalı ekspert və politoloqların Qarabağla bağlıaktivləşməsinə və ara verməndən bəyanatlar səsləndirməsinə diqqət çəkdi:** "Bu, bir neçə məqamla izah oluna bilər. Məlumdur ki, Ermənistanın yeni rəhbərliyi Rusiyaya bir neçə mesaj verib. Birincisi və əsası odur ki, Qarabağ münaqişəsi həll olarsa, Rusiya artıq Ermənistana lazım olmayacaq. İkincisi, bütün bu proseslərin həll edilməsində əsas maneə yenə Rusiyadır. Ermənistanı Türkiyə ilə qorxudan qüvvələrə cavab olaraq yeni hakimiyyət artıq bu proseslərdən çəkinmir. Bundan başqa, Ermənistanda ən yuxarı eşelonlarda baş verən korrupsiya hallarından Rusiya xəbərdar olmaya bilməzdi. Bütün bunlara görə artıq anti-Rusiya meylləri artmaqdadır. Məlum məsələdir ki, Dağlıq Qarabağ münaqişəsi SSRİ tərəfindən yaradılan bir münaqişə və hətta deyərdim ki, müharibə ocağıdır".

**A.Nağıyev qeyd etdi ki, əgər bütün xarici və ya daxili siyasətdə Rusiya özünü SSRİ-nin varisi hesab edirsə, deməli, bu münaqişə ilə bağlı da varis olmalıdır:** "Əgər Rusiya politoloqlarının dediyi kimi, bu, Yeltsinin vaxtında baş veribsə, o vaxtdan kifayət qədər müddət ötüb və yeni rəhbərliyin vaxtında Ermənistan Rusiyanın tərəfdaş və vassalına çevrilib. Bu da münaqişənin həlli üçün kifayət qədər vaxtdır. Deməli, münaqişənin həlli üçün maraq olmayıb. Məhz buna görə də Rusiyanın indiki və keçmiş iqtidarı arasında Qarabağla bağlı hər hansı bir fərq hiss olunmur".

**Politoloq Elçin Mirzəbəyli isə qəzetimizə dedi ki, Qarabağın hansı prezidentin dövründə işğal edilməsi Rusiyanın bu məsələdəki rolunu və məsuliyyətini azaltmır:** "Hətta sovet dövründə də başlayan qanlı separatizm dalğasına, 20 Yanvar qətliamına görə Rusiya məsuliyyət daşıyır. Rusiya özünü SSRİ-nin hüquqi varisi elan edibsə, bu, Moskvanın yalnız SSRİ-nin nüvə arsenalına və digər üstünlüklərinə sahiblənməsi ilə yekunlaşmır. Rusiya SSRİ-nin hüquqi varisidirsə, deməli, həmin dövlətin bütün hüquqi öhdəliklərinə görə məsuliyyət daşıyır. Digər tərəfdən, Rusiyanın hazırkı prezidenti də Yeltsinin komandasının üzvü olub və Rusiyanın ilk prezidenti tərəfindən varis elan olunub. Bu baxımdan Vladimir Putin həm də Boris Yeltsinin siyasi varisidir".

**E.Mirzəbəyli digər məqamı da xüsusi vurğuladı:** "Sirr deyil ki, Azərbaycan torpaqlarının işğalı prosesində Rusiya silahlı qüvvələrinin hərbi birləşmələri də fəal iştirak ediblər. Həmin birləşmələrə kimin əmr və ya göstəriş verməsinin də heç bir əhəmiyyəti yoxdur. Çünki onlar Rusiya dövlətinin adından çıxış ediblər. Boris Yeltsin də, digərləri də həmçinin. Azərbaycan ərazilərinin işğalı ilə bağlı Rusiyanın siyasətində fundamental dəyişiklik yoxdur. Yeltsinin hakimiyyətdən getdiyi zaman kəsiyində Kreml Ermənistanı dəstəkləməyə davam edib. Rusiyanın Gümrüdəki hərbi bazası gücləndirilib, Ermənistana əvəzsiz, yaxud guya kredit yolu ilə silah-sursat, hərbi texnika verib, işğalçı ölkə ilə hərbi-siyasi müttəfiqlik münasibətlərini genişləndirib və s".

**Politoloq qeyd etdi ki, əgər Yeltsin və komandası işğala dəstək veribsə, Putin də işğalın qalmasına dəstək verir:** "Onu da nəzərə almaq lazımdır ki, Yeltsinin dövründə Rusiyada dövlət idarəçilik sistemi bərbad vəziyyətdə idi, ölkədə hərc-mərclik hökm sürürdü. İndi isə vəziyyət tamamilə fərqlidir. Yəni Putin Rusiyasının Ermənistana təsir və təzyiq imkanları Yeltsin Rusiyasının imkanlarından daha çoxdur. Həmçinin nəzərə almaq lazımdır ki, Azərbaycan torpaqlarının işğaldan azad edilməsi ilə bağlı BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrə Yeltsinin rəhbərlik etdiyi Rusiya da səs verib. Yəni Rusiya həmin dövrdə BMT Təhlükəsizlik Şurasının daimi üzvü kimi veto hüququndan da istifadə edə bilərdi. Amma Putin Rusiyası nəinki BMT Təhlükəsizlik Şurasında, hətta BMT Baş Assambleyasında belə Azərbaycanın ərazi bütövlüyü, həmçinin Ermənistanın işğalçılıq siyasətinə son qoyulması ilə bağlı sənədlərin müzakirəsinə mane olmağa çalışır. Sabah Rusiyanın mövqeyində hansı dəyişikliyin olacağını deyə bilmərəm, amma indi fərq göz qabağındadır. Əgər rusiyalı ekspert bu fərqi görə bilmirsə, o zaman onun "görmə" ilə bağlı ciddi problemləri var".

❑ **E.PAŞASOY, "Yeni Müsavat"**

# Gəncə işində İran izi - hadisənin arxasında Tehranın göstərilməsi kimə sərf edir?

## Gerçəklər üzə çıxır və...

**Məlum olduğu kimi, rəsmi ittihamda Elmar Vəliyevə qarşı sui-qəsd törətmiş Yunis Səfərovun dindar olması və bir neçə ay İranda (Qum şəhərində - musavat.com.) yaşadığı və buradan Suriyaya getdiyi qeyd olunur. Doğrudur, rəsmi orqanların bəyanatında Gəncə hadisəsində İran dövlətinin əli olması haqda iddia mövcud deyil. Lakin bu açıqlamadan sonra media və sosial şəbəkələrdə İranın adı hallanmağa başlayıb.**




Rəsmi məlumatda qeyd olunur ki, fakt üzrə başlanılmış cinayət işi üzrə həyata keçirilən istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri ilə müəyyən edilmişdir ki, Rusiya Federasiyasının vətəndaşı olan Yunis Səfərovun törətdiyi bu cinayət məqsədyönlü şəkildə həyata keçirilən əvvəlcədən planlaşdırılmış terror aktıdır. O, 2016-cı ildə İran İslam Respublikasına gedərək 8 ay Qum şəhərində yaşamış və bu müddət ərzində Azərbaycan vətəndaşı olan Rasim Əsədovla birgə Suriya Ərəb Respublikasının ərazisində olan silahlı birləşmələrin tərkibində döyüş təlimi keçmişdir.

Göründüyü kimi, rəsmi sənəddə İran adı qeyd olunmur. Lakin Səfərovun Qumda *(İranda - musavat.com.)* yaşaması və oradan Suriyaya getməsi istər-istəməz İran dövlət orqanlarını ağıla gətirir. Ancaq İslam Respublikasının indiki şəraitdə Azərbaycanda siyasi qətl və ajiotaj yaratması üçün nə qədər səbəbi var? Üstəlik, İran hansısa məmura qarşı bir terror hərəkəti etsəydi, bu qədər açıq və görünən iz qoyardımı? Dosyesi bunca qabarıq birini tətikçi olaraq yollayardımı?

Məsələ ondadır ki, hazırda dünyada möhkəm sıxışdırılan, neft ixracatı iki dəfəyə yaxın azalan *(gündəlik 2,8 milyon bareldən 1 milyona enmə təhlükəsi var - musavat.com)* və ABŞ-ın ciddi siyasi, iqtisadi təzyiqləri ilə üz-üzə qalan, regionda İsrail, ərəb dövlətləri kimi güclü rəqiblərinin təzyiqi altına olan İranın Azərbaycanda xaos və sui-qəsd törətmək nəyinə lazımdır? Məntiqlə qəti şəkildə lazım deyil və İran üçün Azərbaycan indiki zamanda olduqca vacib müttəfiqdir.

Lakin fakt ortalıqdadır və kimlərsə israrla Yunis Səfərovu din mücahidi, "İran agenti" etməyə çalışır. Məqsəd nədir? Bizə görə, Tehranla Bakının arasını vurmaq, iki qonşunu bir-birinə düşmən etmək.

Sübutmu? Musavat.com-un müxbirləri müşahidə edirlər ki, ilk baxışdan İrandan idarə olunduğu ehtimal edilən bəzi informasiya resursları və sosial şəbəkə səhifələri Gəncə ŞİH başçısı Elmar Vəliyevə sui-qəsddən sui-istifadə edərək şiddətli anti-Azərbaycan təbliğatı aparırlar. Kiçik bir araşdırma nəticəsində isə aydın olur ki, bu resurslar İrandan deyil, Qərb ölkələrindən yayın yapırlar. Buradan da ortaya çıxan yalnız bir nəticə var: Elmar Vəliyevə sui-qəsddən sonra aparılan proses, Gəncə camaatına və Azərbaycan xalqına yönəlik kampaniyalar əslində İranla Azərbaycan arasında münasibətləri pozmağa çalışan bəzi Qərb dairələrinin təxribatıdır. Maraqlı dairələr indi bu vəziyyətdən istifadə edərək Tehran-Bakı əlaqələrini yaralamağa çalışırlar. Bu istiqamətdə ciddi iş aparılır və belə demək olarsa, artıq ictimai rəydə bu görüntü yaradılıb.

Həqiqəti hər şeydən vacib hesab edən oxucularımıza bildiririk ki, hər şey heç də təqdim olunan kimi deyil. Əminik ki, yaxın günlərdə istintaq orqanları da bu cinayəti işinə daha dərindən araşdırıb, din amilinə aydınlıq və korreksiya gətirəcəklər.

İranda oxuyan birinin, hətta "Hizbullah" hörgütünün əfsanəvi komandiri İmad Muğniyəyə simpatiya bəsləyən, onun papağından qoyan biri olsa da, hər hansı bir cinayəti dərhal Tehrandan gələn göstəriş kimi qəbul olunmamalıdır. Burada hər kəs ayıq və həssas olmalı, kənar güclərin təxribatlarına alət olmamalıdır.

İran dövlət orqanları da kifayət qədər təcrübəlidir və təbii ki, onlar da dindar kimliyi olan, İranda yaşamış birinin törədəcəyi qətlin Tehranın üzərində qalacağını bilirlər. Və aydın məsələdir ki, belə bir şey etsə idi, yüksək rütbəli məmuruna qəsd olunmasını rəsmi Bakı Tehrana bağışlamazdı. Belə olan halda Gəncə tətikçisinin Tehranın əmri ilə bu addımı atması mümkünsüz görünür. Nəzərə alaq ki, söhbət blokadası sürətlə daralan İrandan gedir və belə bir vəziyyətdə Tehran daha bir qonşusu ilə düşmən vəziyyəti yaradıb, blokadasını daha da daraltmaz.

Əlbəttə, bu işin arxasındakı qüvvəni istintaq və dövlət orqanları müəyyən edəcəklər. Mümkündür ki, bu qəsdin arxasındakı əsl qüvvənin adı heç zaman açıqlanmasın. Amma ən azı əlimizdəki məlum açıq bilgilər və məntiq bu qənaətə gəlməyə əsas verir ki, Tehran bu qədər açıq "əl izi" buraxaraq, bu işi görməzdi.

❑ **Musavat.com**

# "Məmurların gəlirlərini yoxlayan xüsusi qurum yaradılmalıdır"

## Əli Məsimli: "Vəzifəli şəxslər korrupsiyaya qurşanandan sonra tədbir görülməli deyil..."



**Bu ilin 6 ayının yekunlarına həsr olunmuş hökumət müşavirəsində çıxış edən prezident İlham Əliyev ölkədə korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizənin daha ciddi aparılmalı olduğunu bildirib. Qeyd edib ki, Azərbaycanda bu böyük sosial bəlanın kökü kəsilməlidir: "Dünyanın aparıcı ölkələrində bu sahədə hansı yollarla mübarizə aparılırsa, Azərbaycanda da həmin yollarla mübarizə aparılmalıdır".**

*Dünya təcrübəsində dövlət idarəetməsində korrupsiyanın qarşısının alınmasına yönəlik əsas addımlardan biri isə məmurların gəlirlərini açıqlamasıdır. Azərbaycanda uzun illərdir tətbiqi baş tutmayan bu mübarizə vasitəsi ilə bağlı suallarımızı millət vəkili Əli Məsimli cavablandırdı:*

***- Əli bəy, Azərbaycanda məmurların gəlir bəyannaməsi verməsi prosesi, bildiyiniz kimi, yarımçıq qalıb. Neçə illərdir bu məsələ gündəmə gətirilsə də, baş tutmur. Sizcə, səbəb nədir?***

- Məmurların gəlir bəyannaməsinin təqdim edilməsi şəffaflığın təmin edilməsi və korrupsiyanın aradan qaldırılmasının ən vacib şərtlərindən biridir. Bu baxımdan, əslində dünyanın əksər ölkələrində vəzifəli şəxslər, nazirlər, məmurlar və s. gəlir bəyannaməsini açıqlamaqda maraqlı olmurlar. Amma bunu istəməsələr belə, qanun tələb etdiyindən qaydalara əməl edirlər. Azərbaycanda da 24 iyun 2005-ci ildə "Vəzifəli şəxslər tərəfindən maliyyə xarakterli məlumatların təqdim edilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında qanun qəbul edilib. 2005-ci ilin 9 avqustunda isə bu qanunun tətbiq edilməsi barədə xüsusi prezident fərmanı verilib.

Həmin qanunda öz əksini tapmış qaydalar "Korrupsiyaya qarşı mübarizə haqqında" Qanunun 5.1-ci maddəsində nəzərdə tutulmuş maliyyə xarakterli məlumatların təqdim edilmə formasını, məlumatları təqdim edən vəzifəli şəxsləri, bu məlumatları qəbul edən orqanları və həmin məlumatların yoxlanılması qaydalarını müəyyən edir. Vəzifəli şəxslər qanunvericiliklə müəyyən edilmiş qaydada mənbəyini, növünü və məbləğini göstərməklə hər il öz gəlirləri barədə; vergitutma obyekti olan əmlakı barədə; kredit təşkilatlarındakı əmanətləri, qiymətli kağızları və digər maliyyə vəsaitləri barədə; şirkətlərin, fondların və sair təsərrüfat subyektlərinin fəaliyyətində səhmdar və ya təsisçi kimi iştirakı, bu müəssisələrdə öz mülkiyyət payı barədə; borcu, maliyyə və əmlak xarakterli digər öhdəlikləri barədə məlumatları təqdim etməlidirlər. "Korrupsiyaya qarşı mübarizə haqqında" Qanunun 5.1-ci maddəsində göstərilən məlumatlara vəzifəli şəxslərin ailə üzvlərinin (əri və ya arvadı və onunla birgə yaşayan valideynləri və uşaqları) əmlakı, maliyyə və əmlak xarakterli öhdəlikləri haqqında məlumatlar da daxildir.

Vəzifəli şəxslər bəyannaməni yazılı formada tərtib edirlər və bəyannamədə göstərilən məlumatların həqiqiliyinə və tamlığına görə şəxsi məsuliyyət daşıyırlar.

Öz fəaliyyətini qərəzsiz həyata keçirən, öz xalqına, dövlətinə şərəflə xidmət edən, təmiz işləyən vəzifəli şəxslər üçün sözügedən məzmunda bəyannamə verməkdə heç bir problem yoxdur. Bu baxımdan yanaşanda, əslində "Vəzifəli şəxslər tərəfindən maliyyə xarakterli məlumatların təqdim edilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında qanunun tətbiqinin bu qədər gecikdirilməsi anlaşılan deyil... Amma başqa məqam var. Azərbaycanda bir qayda olaraq vəzifəli şəxs özü birbaşa bizneslə məşğul olmur. Amma onların bir qisminin idarə etdiyi biznes sahələri var və bunu dolayı yollarla həyata keçirirlər. Eyni zamanda vəzifəli şəxslərin oturduğu kreslonu sərvətə konvertasiya etməklə məşğul olan hissəsi tərəfindən hər il bu cür maliyyə xarakterli bəyannamənin təqdim edilməsi onun aləmində özünəqəsd etməsi kimi bir şeydir. Bu zümrədən olan məmurların öz gəlirlərini bəyan etməsi onlar üçün ciddi problemlər yarada bilər, çünki onların bir qismi birbaşa olmasa da, dolayısı ilə müxtəlif sahibkarlıq strukturlarına nəzarət edirlər. Monopoliya da xeyli dərəcədə burdan qaynaqlanır və potensialımıza layiq inkişafımızı tormozlayır. Ona görə də Azərbaycanda "Vəzifəli şəxslər tərəfindən maliyyə xarakterli məlumatların təqdim edilməsi Qaydaları" haqqında qanun 2005-ci ilin 9 avqustundan qüvvədə olsa da işləmir. Bu qanun işləmədiyinə görə vəzifəli şəxslərin bir hissəsi çalıb-çapmaqla məşğuldur... Məsuliyyət hissini itirib harınlamışları isə xalqa qarşı özbaşınalıqdan belə çəkinmirlər. Həmin zümrədən olan vəzifəli şəxslər yalnız vəzifədən gedəndən sonra məlum olur ki, dövlətə, xalqa yüz milyonlarla, milyardlarla manat ziyan vurublar.

***- Maraqlıdır, nədən hətta Rusiyada belə bəyannamələr verilir, ictimaiyyətə açıqlanır, bizdə isə bu, alınmır?***

- Rusiyada və postsovet məkanına aid olan bir sıra ölkələrdə məmurların gəlir bəyannamələri verməsi ilə bağlı indiyədək görülən işlər irəliyə doğru mühüm addım hesab olunsa da, daha çox aşağı və orta ranqlı vəzifəli şəxsləri əhatə edir. Ona görə də postsovet məkanına aid ölkələrin çoxunda korrupsiya yüksək həddə olmaqla dünya ölkələri arasında ön sıralarda gedirlər. Sözügedən həmin tədbirlər bir sıra hallarda isə onlarda da dekorasiya xarakteri daşıyır. Məsələn, Şevardnadze zamanında Gürcüstan vəzifəli şəxslərin gəlir bəyannaməsi verilməsinə və ictimaiyyətə açıqlanması sahəsində postsovet məkanında öndə gedən ölkələrdən biri idi, amma eyni zamanda həm də həmin dövrdə Gürcüstan postsovet məkanında korrupsiya sahəsində də öndə gedən ölkələrdən biri idi. Yalnız Saakaşvili hakimiyyətə gələndən sonra onun ciddi cəhdləri hesabına Gürcüstanda korrupsiya əhəmiyyətli dərəcədə azalmış oldu və digər ölkələrə nümunə göstərilməyə başlandı. Hələ inkişaf etmiş ölkələri bir yana qoysaq,... postsovet məkanına aid olan Baltikyanı ölkələrin təcrübəsi göstərir ki, korrupsiya hər yerdə olsa da, onunla mübarizə üsulları düzgün tətbiq ediləndə bu yolla korrupsiya hallarını xeyli azaltmaq olur. Ona görə də məmurların gəlirlərinin bəyan etməsi çox vacibdir Bu əsasda cəmiyyət də, dövlət də haqqı-nahaqdan, ağı-qaradan seçə bilər. Əks halda, bu məsələdə vəziyyətin bulanıq olması həmişə sosial narazılıq və bir sıra hallarda isə gərginlik mənbəyi olaraq qalacaq.

### "On üç il əvvəl qəbul edilən qanun niyə icra olunmur"

***- Bu sistemi işə salmaq, mexanizmi yaratmaq üçün hansı addımlar atılmalıdır? Qanunvericiliyə hansı dəyişikliklər olunmalıdır? Bu məsələ ilə bağlı Siz konkret nələri təklif edirsiniz?***

- Beynəlxalq təcrübədən məlumdur ki, ümumiyyətlə, korrupsiyaya qarşı mübarizədə və vəzifəli şəxslərin gəlir bəyannaməsinin elan edilməsi sahəsində yalnız bu problemin həllinə kompleks yanaşan və korrupsiyanı idarəetmə forması kimi inkar etmiş ölkələr uğurlu nəticələr əldə edə bilirlər. Ona görə də hər şeydən əvvəl inhisarçılığa, korrupsiyaya və məmur özbaşınalıqlarına qarşı mübarizə fikirdə, sözdə və işdə dövlət siyasətinin prioritetinə çevrilməlidir. Qanunun aliliyi təmin edilməli, azad, ədalətli qərarlar çıxarmaq səviyyəsində işləyə bilən müstəqil məhkəmə sistemi formaşdırılmalı, heç kimə qanundan yüksəkdə durmağa, insanların hüquqlarını tapdalamağa, haqlarını yeməyə imkan verilməməlidir. Bu baxımdan Azərbaycanda korrupsiyaya qarşı həyata keçirilən tədbirləri, qəbul edilən proqram, qanunlar və digər sənədləri, yaradılan qurumları, atılan hər bir addımı, hər bir işi müsbət qiymətləndirməklə yanaşı, həm də onu da qeyd etmək lazımdır ki, məmurların gəlir bəyannaməsi verməsi ilə bağlı indiyədək görülən işlər dekorasiya xarakteri daşıyır. Milli Məclisin qəbul etdiyi və prezidentin imzaladığı 14 avqust 2005-ci ildə dərc olunduğu gündən qanunu qüvvəyə mindiyi "Vəzifəli şəxslərin gəlir bəyannaməsinin elan edilməsi qaydaları" tətbiq olunmağa başlanmalıdır. Azərbaycanda "Vəzifəli şəxslər tərəfindən maliyyə xarakterli məlumatların təqdim edilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında qanunun reallaşdırma mexanizmi hazırlanıb, həyata keçirilməlidir. Qanunun tətbiq edilməsi barədə xüsusi prezident fərmanında göstərilmişdi ki, Nazirlər Kabineti iki ay müddətində qüvvədə olan qanunvericilik aktlarının bu qanuna uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb prezidentə təqdim etsin, qanunun 4.1-ci maddəsində nəzərdə tutulmuş bəyannamənin formasını və təqdim edilmə qaydalarını müəyyən etsin. Heç olmasa aradan 12 il keçəndən sonra həmin fərmanda göstərilən işlər həyata keçirilməlidir. Maliyyə amnistiyası haqqında və ya gəlirlərə və əmlaka amnistiya barədə qanun qəbul edilməli, yaxud da müvafiq fərman verilməlidir. Gəlirlərə və əmlaka amnistiya tətbiq edikdən sonra təbii ki, məmurların və iş adamlarının vəsaitinin və əmlakının uçotu aparılmalıdır.

***- Məlumdur ki, məmurların əmlakı bir qayda olaraq öz adlarına rəsmiləşdirilmir. Bu halda onun uçotunu necə aparmaq olar?***

- Vəzifəli şəxslərin gəlirlərinin real miqyaslarını öyrənmək heç də asan iş deyil. Ona görə də vəzifəli şəxslərin gəlirlərinin real miqyasının öyrənilməsi sahəsindəki qabaqcıl dünya təcrübəsini bizdə də tətbiq etmək lazımdır. Azərbaycanda nəzarət işi çox paradoksludur: nəzarət vətəndaşa tətbiq olunanda çox sərt olur. Vətəndaş öz eyvanında bir kərpic artıq qoyanda bir neçə təşkilatın nümayəndəsi tez gəlib başının üstünü alır, ya cəzalandırır, ya da nəsə alıb gedir.... Amma nəzarət dövlət orqanlarında vəzifəli şəxslərə tətbiq olunanda "yolavermə" mexanizmi kimi yanaşılır. Yalnız məmur işdən çıxandan sonra məlum olur ki, yüz milyon manatlarla ölçülən səviyyədə yeyinti olub. Bu yanaşma kökündən səhvdir. Hesab edirik ki, aidiyyəti orqanlar və Hesablama Palatası vəzifəli şəxslər korrupsiyaya qurşanandan sonra tədbir görməli deyil, korrupsiyanın baş verməsinə imkan verməməlidir. Hesablama Palatası haqqında yeni qanunda bu qurumun səlahiyyət dairəsi xeyli artırıldı və korrupsiyaya qarşı mübarizə imkanları xeyli genişləndirildi. Hesablama Palatasının büdcə proseslərinə və umumiyyətlə, hökumətin maliyyə siyasətinə təsirini gücləndirməkdən ötrü nəzarət üsulunu əsaslı surətdə yenidən qurmaq lazımdır. Bununla yanaşı, maliyyə sahəsində müasir tələblərə cavab verən hüquqi baza formalaşdırmaqdan ötrü Dövlət Maliyyə Nəzarəti haqqında model qanunun və ondan doğan digər normativ-hüquqi aktların, eləcə də Büdcə Məcəlləsinin də qəbulunun sürətləndirilməsini zəruri hesab edirik. Eyni zamanda qabaqcıl beynəlxalq təcrübədən çıxış edərək məmurları gəlir bəyannamələrinin həqiqətə nə qədər uyğun olub-olmadığını obyektiv şəkildə yoxlayan xüsusi səlahiyyətlərə malik, müstəqil bir qurumun yaradılmasına da ehtiyac var. Beynəlxalq təcrübədən məlumdur ki, maliyyə amnistiyası tətbiq edilərsə, qoyulan maksimum məqsədə tam nail olunması mümkün olmasa da, hər halda, iqtisadiyyata sərmayələr artar, yeni iş yerləri açılar, əmlaklar leqallaşar, ölkə üzrə vergi bazası genişlənər və deməli, büdcəyə daxilolmalar da artar.

"Vəzifəli şəxslər tərəfindən maliyyə xarakterli məlumatların təqdim edilməsi qaydaları"nda vəzifəli şəxsin təkcə Azərbaycan ərazisində deyil, xaricdəki əmlakı və maliyyəsi ilə bağlı da məsələlər birmənalı mətnlə öz əksini tapmalıdır. Bu yolla "Vəzifəli şəxslər tərəfindən maliyyə xarakterli məlumatların təqdim edilməsi qaydaları"ndan ən azından çəkindirici bir amil kimi istifadə etmək, korrupsiyanı tam aradan qaldırmaq mümkün olmasa da, hər halda, xeyli səngitmək, həm də beynəlxalq təcrübədən məlum olan miqyaslarda xaricə daşınan oğurluq pulların qarşını almaq, həm də onun bir hissəsini ölkəyə qaytarmaq olar.

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 148 (7037) 11 iyul 2018

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



# Brüssel zirvəsi ərəfəsində Bakıdan mühüm Qarabağ mesajları

## Azərbaycan danışıqların dalandan çıxması üçün ən optimal "Yol xəritəsi" göstərdi: "Ermənistan inkişaf eləmək istəyirsə..."; eks-diplomatdan Brüssel görüşləri ilə bağlı maraqlı şərh: "İrəvanın hiyləgər planı var..."

**Bu gün - iyulun 11-də Belçikanın paytaxtı Brüsseldə Azərbaycan və Ermənistan xarici işlər nazirləri - Elmar Məmmədyarov və Zöhrab Mnatsakanyan arasında görüş planlaşdırılır. NATO-nun zirvə toplantısı çərçivəsində baş tutacaq görüş işğalçı ölkədə hakimiyyət çevrilişindən sonra Azərbaycan və Ermənistan XİN rəhbərləri arasında ilk təmas olacaq. Məmmədyarov belə deyib.**




**Azərbaycan XİN başçısı görüş ərəfəsində "AzərTAc"a verdiyi geniş müsahibədə İrəvana Bakının mesajını da çatdırıb:** "Ermənistan rəhbərliyi anlamalıdır ki, konfliktin həlli onların ən çox ehtiyac duyduğu regional əməkdaşlıq imkanları yarada və regionda davamlı sülhü təmin edə bilər. Əgər onlar (yeni iqtidar - red.) da Sərkisyan rejiminin yolu ilə gedərlərsə, onları da eyni aqibət gözləyir. Danışıqlar prosesində Azərbaycanın mövqeyi aydın, birmənalı və qətidir. Bu, ilk növbədə beynəlxalq hüququn norma və prinsiplərinə, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə əsaslanır. Münaqişənin mərhələli həlli prosesinin yol xəritəsini də hər kəs çox yaxşı bilir. Münaqişənin həllində irəliləyiş əldə etmək üçün ilk növbədə, işğal faktı aradan qaldırılmalı və BMT Təhlükəsizlik Şurasının qətnamələrində tələb olunduğu kimi, Ermənistan qoşunları Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarılmalıdır. Seçim Ermənistan tərəfdədir. Qarşıdan gələn görüş göstərəcək ki, Ermənistan, nəhayət, münaqişənin həllində konstruktiv rol oynamağa hazırdır, ya yox".

*****

Azərbaycan XİN başçısının qoyduğu suala cavab əslində rəsmi İrəvanın bir daha sülh, yoxsa müharibə istədiyinə aydınlıq gətirəcək. "Yeni Müsavat" xatırladır ki, Bakı və İrəvan arasında Qarabağla bağlı son ən yüksək səviyyəli təmas ötən ilin oktyabrında Cenevrədə Azərbaycan prezidenti İlham Əliyev və Ermənistanın o vaxtkı prezidenti Serj Sərkisyan arasında olub. Lakin həmin görüş də nəticəsiz bitib. Ardınca Azərbaycanda və Ermənistanda keçirilən prezident və baş nazir seçkiləri, daha sonra işğalçı ölkədə yaşanan hakimiyyət dəyişikliyi səbəbindən, daha dəqiqi, qarşı tərəfin maksimalist mövqeyi üzündən danışıqlar dalana girib.

Brüssel görüşü sülh prosesini dalandan çıxarmaq üçün şans hesab edilir. Lakin bu şans Elmar Məmmədyarovun da vurğuladığı kimi, yalnız Ermənistan konstruktiv mövqe tutacağı halda reallaşa bilər. Əfsus ki, buna ümidlər olduqca azdır. Hər halda, Ermənistanın yeni populist baş nazirinin Qarabağla bağlı verdiyi açıqlamalar, irəli sürdüyü absurd tələblər indilikdə belə bir qənaət yaradır.

Ancaq belə yanaşmanın altını ən çox elə işğalçı ölkənin özü çəkəcək. Azərbaycan prezidenti İlham Əliyev ötən bazar yarım ilin yekunlarına həsr olunmuş müşavirədə etdiyi çıxışda diqqəti bir daha buna yönəldərək, işğalçı ölkənin yeni rəhbərliyini konstruktiv danışıqlara çağırıb. Əks halda, erməni xalqının iztirablarının davam edəcəyini, Ermənistanın indikindən də ağır duruma tuş gələcəyi barədə xəbərdarlıq edib.

*****

"Baxın görün Ermənistanda nələr baş verir. 20 il ərzində kriminal, korrupsioner, qaniçən, oğru, yalançı hakimiyyət tam iflasa uğradı. Mənim dediklərimi indi erməni xalqı deyir. Mən bir neçə dəfə ən mötəbər kürsülərdən, BMT kürsüsündən Ermənistanın əvvəlki hakimiyyətini ittiham etmişdim. Demişdim ki, bu, kriminal xunta rejimidir, indi bunu erməni xalqı deyir... Nə qədər ki, torpaqlarımız işğal altındadır, biz Ermənistana qarşı təcrid siyasətimizi aparacağıq. Bu siyasət nəticəsində Ermənistan iqtisadi iflasa uğradı. Ermənistanın iqtisadi perspektivləri demək olar ki, yoxdur. Bu ölkəyə investisiya qoymaq istəyən çətin ki, tapılsın. Bu ölkənin demoqrafik vəziyyəti acınacaqlıdır. Mən dəfələrlə demişəm ki, Ermənistandan hər il minimum 50-60 min insan köç edir. İndi bunu yeni hökumət təsdiqləyir. Yəni, bu təcrid siyasətimiz öz rolunu oynadı, biz Ermənistanı bütün regional layihələrdən təcrid etdik. İqtisadi perspektivi olmayan ölkədə inkişaf da olmaz, sərmayə də qoyulmaz, insanların əhval-ruhiyyəsi də yaxşı səviyyədə olmaz", - deyə ölkə başçısı qeyd edib.

**Prezident bildirib ki, Ermənistanı indiki ağır vəziyyətə salan onların işğalçı siyasətidir:** "Əgər işğal olmasaydı, Ermənistan da bizim təşəbbüsümüzlə icra edilən layihələrdə yer ala bilərdi. Onlar da başqa ölkələr kimi bizim imkanlarımızdan faydalana bilərdilər və əlbəttə ki, onların iqtisadi vəziyyəti bu gün yaxşı ola bilərdi... Ümid edirəm ki, Ermənistanın yeni hökuməti kriminal rejimin səhvlərini təkrarlamayacaq, münaqişənin həlli ilə bağlı konstruktiv mövqe tutacaq və münaqişə tezliklə həllini tapacaq, ölkəmizin ərazi bütövlüyü bərpa ediləcək. Münaqişənin həllinə gəldikdə isə bunun bir yolu var: işğalçı qüvvələr işğal edilmiş torpaqlardan çıxarılmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir, BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi icra olunmalıdır. Bu qətnamələr qüvvədədir və bu qətnamələrdə açıq-aydın göstərilib ki, - əgər kimsə bunu unudubsa, xatırlada bilərəm, - erməni silahlı qüvvələri işğal edilmiş torpaqlardan dərhal və qeyd-şərtsiz çıxarılmalıdır. Bu qətnamələr qüvvədədir və qüvvədə olacaq".

**Ölkə başçısı onu da deyib ki, ordumuzun döyüş qabiliyyəti çox yüksək səviyyədədir və bunu yaxın tarix göstərib.** "2016-cı ilin Aprel döyüşləri və qazandığımız böyük qələbə, 2018-ci ilin mayında Naxçıvan əməliyyatı və minlərlə hektar torpağın işğalçılardan azad edilməsi - bütün bunlar Azərbaycan Ordusunun döyüş qabiliyyətini göstərir. Qarşı tərəf bunu bilir və onların bu gün beynəlxalq təşkilatlara müraciəti, əslində öz məğlubiyyətlərinin etirafıdır. Əgər səndə güclü ordu varsa niyə beynəlxalq təşkilatlardan yardım istəyirsən? Niyə Azərbaycandan beynəlxalq təşkilatlara şikayətlər edirsən? Sən bu torpaqları xarici dövlətlərin dəstəyi ilə işğal etmisən", - deyə İlham Əliyev qeyd edib.

*****

Həm Azərbaycan prezidentinin, həm də Azərbaycan XİN başçısının Qarabağ mövzusunda son çıxışları işğalçı tərəfin, nəhayət, ağla gəlməsi üçün çağırış olmaqla yanaşı, eyni zamanda sülh danışıqlarının dalandan çıxarmağa yönəlik ən optimal "Yol xəritəsi"dir, hərəkət planıdır. Qalır ondan rasional istifadə. Düşmən ölkə acı gerçəyi ciddiyə alıb da, "daşı ətəyindən" tökəcəkmi?

Suala cavabı təxminən bu gün biləcəyik. Əgər işğalçı ölkə yenə də şablon mövqe sərgiləyib "qalib tərəf" ovqatından çıxış eləsə, böyük sülh anlaşmasından qaçsa, o zaman indiki hökumətlə, ümumiyyətlə, danışıqlar aparıb vaxt itirməyin anlamı qalmayacaq və müharibə konfliktin yeganə həll yolu kimi gündəliyə gələcək.

*****

**XİN başçılarının Brüssel görüşü ərəfəsi Azərbaycanın sabiq xarici işlər naziri Tofiq Zülfüqarov Ermənistanın yeni rəhbərliyinin Qarabağ məsələsində də birbaşa dəxli olan bəzi hiyləgər gedişləri haqda danışıb (axar.az). Öncə Ərdoğanın Bakı səfərinə toxunan politoloq Azərbaycan və Türkiyə liderlərinin Qarabağ məsələsini də müzakirə edəcəklərini istisna etməyib və Ərdoğanın Bakıdan sonra Brüsselə gözlənilən səfərinə diqqət çəkərək bəzi siyasi məqamlara işıq salıb:** "Türkiyə NATO-nun bölgədəki əsas oyunçularından biridir. Onun Alyans üçün əhəmiyyəti dəfələrlə, müxtəlif səviyyələrdə qeyd olunub. Bu baxımdan Türkiyənin orada iştirakı Azərbaycan üçün də çox vacibdir. Çünki ermənilər ölkələrinin təhlükəsizliyi məsələsində NATO-nun bu və ya digər şəkildə Ermənistanla tərəfdaşlığı artırmasını və daha çox əməkdaşlıq etməsini istəyirlər. Ermənistan hakimiyyəti artıq yeni bir siyasi model üzərində işləyir. Yəni onlar Qərblə siyasi, iqtisadi, mənəvi və digər sahələrdəki əlaqələrini genişləndirmək xətti yürüdürlər. Ermənistan XİN başçısı qeyd edib ki, hazırda ölkəsi üçün ən önəmli məsələ təhlükəsizliklə bağlı zəmanətlərə fasilənin verilməməsidir. Mnatsakanyan burada ilk növbədə Ermənistanın təhlükəsizliyinin birbaşa xarici faktorlarla bağlılığını nəzərdə tutur. Yəni Rusiya Ermənistana verdiyi təhlükəsizlik zəmanətindən əl çəkərsə, İrəvanın bu zəmanəti xarici qurumlardan ala biləcəyinə işarə edir. Onların Brüsseldə NATO-nun zirvə toplantısına böyük nümayəndə heyəti ilə qatılmaları heç də təsadüfi deyil. Gələcək hadisələrin cizgiləri təxminən bundan ibarətdir. Hadisələrin bundan sonra hansı istiqamətdə cərəyan edəcəyini isə zaman göstərəcək".

Lakin işğalçı ölkə gərək bunu da unutmasın ki, istənilən ölkə üçün ən böyük, ən etibarlı təhlükəsizlik zəmanəti ilk növbədə onun öz qonşuları ilə sülh və əmin-amanlıq içində olmasıdır. Ermənistan iki əsas qonşusu - Türkiyə və Azərbaycanla normal münasibətlər qurmayınca, işğal siyasətindən əl çəkməyincə, özünü beynəlxalq hüquqa çevirib də öz qonşularının ərazi bütövlüyünü tanımayınca, heç bir dövlət, qurum ona arzuladığı təhlükəsizlik zəmanətini verməyəcək - istər Rusiya olsun, istərsə də Qərb və ya NATO.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 148 (7037) 11 iyul 2018

# Saxta su biznesi-milyonlar "su kimi" ciblərə axır

## Bazarlarda satılan zərərli sulara niyə nəzarət yoxdur?; **ekspert:** "Ən brend suların belə bir hissəsi su xəttindən doldurula bilər"

**İsti yay havalarında insanların ən çox istehlak etdikləri məhsullardan biri də sudur. Bu gün Bakı küçələrində gəzən əksər insanların əllərində su görürük. Su həm də günvurmanın qarşısını almaq üçün əhəmiyyətlidir. Lakin insanların ehtiyaclarından istifadə edən işbazlar su bazarından da kənarda qalmayıblar.**

Bu gün mağazalarda müxtəlif qiymətə içməli, adi sular satılır. Milyonlar "su kimi" bəzi işbazların cibinə axır.

"Yeni Müsavat"ın əməkdaşı olaraq mağazalarda müşahidə etdik ki, adi suların qiyməti 40 qəpiklə 3-10 manat arasında dəyişir. Qiymət suyun litrindən asılı deyil. Bazarda baha qiymətə satılan sular əsasən xaricdən, şüşə qablarda gətirilən sulardır. Bu suların isə üzərində aksiz marka mövcud deyil.





Prezident İlham Əliyev də Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında qaçaqmalçılıq, vergidən, gömrükdən yayınma məsələsinə toxundu.

**Prezident bildirdi ki, qabaqcıl ölkələrin təcrübəsi Azərbaycanda tətbiq edilməlidir:** "Bütün dövlət qurumları, eyni zamanda sahibkarlar da bilməlidirlər ki, vergi və gömrük sistemlərində tam şəffaflıq təmin edilir, bərabər şərait yaradılıbdır, qeyri-sağlam rəqabətə son qoyulur. Sahibkarlar tam aydın bilməlidirlər ki, işləmə qaydaları nədən ibarətdir. O da çox sadədir: qanunlara riayət etmək, vergiləri tam ödəmək, qaçaqmalçılıqla məşğul olmamaq və ölkə iqtisadiyyatına ziyan vurmamaq. Əsas şərtlər bundan ibarətdir.

Sahibkarlar da öz tərəfindən bu işlərdə məsuliyyətlərini göstərməlidirlər. Vergidənyayınma hallarına son qoyulmalıdır. Bu, kiçik və böyük sahibkarlara aiddir. Hamı qanun qarşısında bərabər olmalıdır. Vergi və gömrük orqanlarının rəhbərliyi qarşısında mənim tapşırıqlarım bundan ibarətdir. Heç kimin heç bir güzəşti yoxdur, ola da bilməz. Hər bir sahibkar vergisini tam ödəməlidir və vergidən başqa heç bir başqa ödəniş olmamalıdır. Mən bunu həm dövlət orqanlarına, həm də sahibkarlara deyirəm. Əgər belə hallar olarsa, dərhal birbaşa Prezident Administrasiyasına və aidiyyəti qurumlara məlumat göndərilməlidir. Çünki biz bu sahədə tam sağlamlaşdırma siyasətimizi davam etdirib başa çatdırmalıyıq".

İkinci bir problemli məsələ isə budur ki, ölkədə əksər sular plastik qablarda satılır. Bu qablar isə insan orqanizmi üçün zərərlidir. İllərdir məsələ ilə bağlı müzakirələr aparılsa da, plastik qabların zərərindən danışılsa da, konkret addımlar atılmır. Araşdırmaçıların fikrincə, plastik qablardakı içkilərdən istifadə edən insanlarda ürək-damar və şəkər xəstəliklərinin riski çoxalır. Bu, plastik qabların tərkibində olan bisfenol-A maddəsi ilə bağlıdır.

ABŞ-ın Milli Toksikoloji proqramının ekspertləri illər öncə keçirdikləri təcrübənin nəticələrini açıqlayarkən, bildirmişlər ki, bisfenol-A (bisphenol 2,2-Di (4-hidroksifenil)propan) sprostat və süd vəzi xərçənginin inkişafına yol açır.

Ekspertlər bildirirlər ki, Azərbaycanda satılan xaricdən gətirilmiş suların qiyməti əslində şişirdilir. Bu qiymətə satılan suların təmiz olduğunu sübut etmək isə olduqca çətindir. Çünki suyun dadı, iyi, rəngi yoxdur.

**Məsələ ilə bağlı "Yeni Müsavat"a danışan ekspert Eyyub Hüseynov aşağıdakıları söyləyib:** "Öncə onu deyim ki, Azərbaycana gətirilən suların heç birində aksiz marka mövcud deyil. Çünki sular aksiz markasına cəlb olunmayan məhsullardır. Yəni dövlətin qanunvericiliyinə görə, Azərbaycanda alkoqollu içkilər və tütün məhsulları aksiz vergisinə cəlb edilib. Suların isə bu vergiyə cəlb edilməməsi əslində normal bir haldır. Əgər adi sular aksiz markasına cəlb olunarsa, həmin suyun qiyməti qalxar. Buna görə də insanların gündəlik istifadə etdiyi sularda bu cür vergi olmalı deyil. Qaldı ki onun təmiz və ya çirkli olduğunu aid etməyə, bu, çox çətindir. Su ilahi bir şeydir. Suyun əslinin analizini aparmaq üçün 300-ə qədər parametr yoxlanmalıdır. Bu isə çox çətin məsələdir. İnsanlar mağazadan su alan zaman ən əsas qablaşdırılan suyun etiketinə baxmalıdır. Orada istehsalçının adresi, telefonu barəsində informasiya almaq olar. Su mürəkkəb maddədir və ona görə onu gözlə, hiss etməklə aid etmək olmur. Çünki suyun nə dadı, nə qoxusu, nə də rəngi var. Ona görə də ən brend suyun bir hissəsi adi su xəttindən də yığıla bilər. Yaxud da heç təmizləməyib, üstünə brend ad yazılar. Ona görə də həqiqətən də məsələ olduqca mürəkkəbdir. Plastik qablarda saxlanılan və isti havada çöldə olan suyu almaqdan insanlar imtina etməlidirlər. Artıq bu cür sular yararsızdır. Plastik qabın tərkibində olan kimyəvi maddələr isti havada miqrasiya edir. Bütün bu məsələləri Qida Təhlükəsizliyi Agentliyi həll etməlidir".

❑ **Əli RƏİS,
"Yeni Müsavat"**

# Enerji sisteminin çökməsinin daha bir səbəbi

## **Ekspert ilginc fakt açıqladı:** "Təəssüf ki, bizdə yağ transformatorlarlı hələ də qaz transformatorları ilə əvəzlənməyib"




**3-4 iyulda Azərbaycanın enerji sistemində baş verən qəzanın səbəblərini prezident fərmanı ilə yaradılmış komissiya araşdırır. Artıq komissiyanın formalaşdırdığı araşdırıcı qrup Mingəçevir İstilik Elektrik Stansiyasında çalışmalara başlayıb.**

Azərbaycan Texniki Universitetinin dosenti, əməkdar mühəndis Qara Həsənov "Xalq qəzeti"nə müsahibəsində bildirib ki, cərəyan transformatorunda bir tona yaxın yağ olur. Q.Həsənovun sözlərinə görə, cərəyan transformatorları yağlı transformatorlardır: "Hazırda bütün dünyada bu tip transformatorları qaz transformatorları ilə əvəz ediblər. Belə transformatorların heç bir partlayış və yanğın qorxusu yoxdur. Bu tip transformatorlar çox uyğun şəkildə yarımstansiyalarda öz funksiyalarını normal qaydada yerinə yetirir, cərəyanın ölçü prinsiplərinə düzgün, xətasız əməl edirlər. Təəssüf ki, bizdə yağ transformatorlarlı hələ də qaz transformatorları ilə əvəzlənməyib. Ona görə də yanğın bu şəkildə fəsad törədib. Hazırda istifadə olunan transformatorlar ölçü transformatorlarıdır, güc transformatorları deyil. Ölçü transformatoru rele mühafizə, avtomatika, siqnala hesablanıb. Onların funksiyaları başqadır. Ona görə də bu transormatorları komplektə uyğun şəkildə dəyişmək lazımdır. Transformatorlar "SCADA" sisteminə uyğunlaşdırılmalıdır. "SCADA" sistemi şəbəkəni onlayn rejimində izləməyə imkan verir. Bir çox avadanlıqlar da buna uyğun olaraq rəqəmsal variantda ifadə olunmalıdır. Burada söhbət təkcə bir tranformatordan yox, müəyyən bir kompleksi dəyişməkdən, müasirləşdirməkdən söhbət gedir. Təəssüf ki, "Azərbaycan" İES-də "SCADA" sistemi tam qurulmayıb".

**Q. Həsənovun dediyinə görə, Mingəçevir İES "SCADA" sisteminə - kompüterləşmə sisteminə keçirilməli idi:** "Bu, çox mükəmməl, son variantlı sistemdir. Ancaq bu sistemin əsas əhəmiyyəti nədən ibarətdir? O, şəbəkəni online rejimində izləmək, onların şəbəkə vəziyyətini, parametrlərini, standartlara uyğun olub-olmadığını izləmək, kənarlaşma varsa, onu siqnalla korrektə etmək, komandaları yenidən işlək qayadasına salmaq və bu komandaları müəyyən bir yerin açılması və ya avtomatik qoşulması və digər işlər həyata keçirməyə imkan verir. Bu, çox mükəmməl bir sistemdir, ancaq kompleks olmalıdır".

**Q.Həsənovun dediyinə görə, Mingəçevir İES-də etinasızlıq, yağın həcminə görə tədbirlərin görülməməsi qəzaya gətirib çıxarıb:** "Buraya bardürlər qoyulmalı idi. Yağın axın istiqamətləri müəyyənləşdirilməli idi. Yağ axaraq kabelin kanalına dolmamalı idi. Diqqətsizlik olan yerdə energetikada qəzanın baş verməsi qaçılmazdır. Hər etinasız hərəkət qəzaya şərait yaradır. Adicə bir şaybanın yerində olmaması böyük bir fəsada gətirib çıxarır".

**Qeyd edək ki, prezident İlham Əliyevin Nazirlər Kabinetinin iclasındakı çıxışında enerji sistemindəki problemlərlə bağlı danışıb:** "Son 15 il ərzində 2500 meqavat gücündə yeni generasiya gücləri yaradılmışdır. Əgər bu generasiya gücləri yaradılmasaydı, biz bir neçə gün bundan əvvəl baş vermiş qəzadan belə çıxa bilməzdik. Çox böyük investisiyalar qoyuldu, bir çox müasir stansiyalar tikildi. Mövcud stansiyalar, o cümlədən Mingəçevir İstilik Elektrik Stansiyasında bəzi təmir işlər aparılmışdır. Ancaq buna baxmayaraq, baş vermiş qəza, əlbəttə, onu göstərir ki, bizim enerji təsərrüfatımızda çox böyük problemlər, qüsurlar var. Bir daha demək istəyirəm ki, bir qəzaya görə bütün enerji sistemi çökməməlidir. Bunun heç cür izahatı ola bilməz. Mən heç bir izahatı da qəbul etmirəm".

**Dövlət başçısının sözlərinə görə, komissiya yaxın gələcəkdə öz rəyini verəcək:** "Eyni zamanda Mingəçevirə ekspertlər qrupu ezam edilmişdir. Onlar da öz sözünü deyəcəklər. Biz qəzanın səbəblərini əlbəttə ki, tam dəqiqliyi ilə bilməliyik. Nə üçün bu qəza bütün enerji sistemimizi belə vəziyyətə qoyub?! Biz bunun cavabını alacağıq. Ancaq ilkin məlumata görə, bunun səbəbi ondan ibarətdir ki, - mən, əlbəttə, komissiyanın rəyini qabaqlamaq, məhz buna görə bu məsələ ilə bağlı öz fikrimi bildirmək istəmirəm, - hətta son illər ərzində istifadəyə verilmiş stansiyalar da tam gücü ilə işləmir. Bunun səbəbi araşdırılmalıdır. Çox güman ki, bunların istismar dövründə səhvlər buraxılıb".

❑ **İqtisadiyyat şöbəsi,
"Yeni Müsavat"**

# Günahkar şiəlikmi...

## Ekspert: “Şiəlik terrora qarşıdır”

**Gəncənin icra başçısı Elmar Vəliyevə qarşı törədilən sui-qəsd hadisəsindən artıq bir həftə keçir. Bu günə qədər hadisənin motivi barədə müxtəlif versiyalar səslənməkdədir. Son olaraq isə hadisənin İranın, şiəliyin üzərinə gətirildiyinin şahidi oluruq.**

Artıq mediada icra başçısına sui-qəsdi birmənalı olaraq şiəliklə bağlayan iddialar, ittihamlar var. Buna əsas yaradan səbəblərdən biri də hadisədən bir qədər sonra “Youtube” kanalında sui-qəsdi törədən Yunis Səfərovun həyat yoldaşı olduğu iddia edilən bir qadının videoyazısının yayılması oldu. Qeyd edək ki, həmin səs yazısında qadın iddia edir ki, icra başçısının Y.Səfərov tərəfindən atəşə tutulması onun müsəlmanların dini inanclarını təhqir edən hərəkətlərə yol verməsi ilə əlaqədar olub. Hətta iddia olunurdu ki, Yunis Səfərov Elmar Vəliyevi müsəlmanları, İmam Hüseyni təhqir etdiyi, Aşura günü şərab festivalı keçirdiyi üçün öldürmək istəyib.

Sonradan yayılan rəsmi məlumata görə, Yunis Səfərov 2016-cı ildə İran İslam Respublikasına gedərək 8 ay Qum şəhərində yaşayıb və bu müddət ərzində Azərbaycan vətəndaşı olan Rasim Əsədovla birgə Suriya Ərəb Respublikasının ərazisində olan silahlı birləşmələrin tərkibində döyüş təlimi keçib. Beləliklə, bir çoxları bu faktları əsas gətirərək, hadisənin dini motivlər əsasında baş verdiyini iddia edir, olayı şiəliyin üzərinə gətirir.

Bəs günahkar şiəlikmi?

**Mövzu ilə bağlı dini ekspert Kənan Rövşənoğlu “Yeni Müsavat”a danışıb:** “Bu hadisə ilk başlayanda da qeyd etmişdim ki, bir hadisənin dini motivli olması üçün müəyyən bir səbəblər, əsas olmalıdır. İlk növbədə dini çağırış, fətva olmalıdır. Gəncə hadisəsi ilə bağlı elə bir çağırış yoxdur. Üstəlik, qrup cinayəti də yoxdur. Yəni hansısa dini qrup ardıcıl provokasiya hadisələri planlaşdırır, bununla da mövcud ictimai-siyasi sistemlərə zərbə vursun. Belə bir motivlər yoxdur. Bir nəfər hələlik dəqiq bəlli olmayan motivlərlə icra başçısını vurub. Nə sui-qəsd zamanı, nə də ondan əvvəl Yunis Səfərovun bu hadisə ilə bağlı çıxışı, çağırışı, dini qisas haqda bir açıqlaması yoxdur. Adətən dini motivli olanda Yaxın Şərqdən də bildiyimiz kimi, bunun videosu çəkilir, əvvəlcədən müraciəti yayılır, prosesin özü bir teatrlaşdırılır. Amma Gəncədə bu olmayıb. Sadəcə, qətldən sonra bu adamın dindar olduğu, ziyarətgahlara getdiyi, sonra isə həyat yoldaşının onun dini təəssübünün olması haqda çıxışı yayıldı. Amma bu açıqlamalar qətlin məhz din uğrunda, dini çağırışlar olduğunu



deməyə əsas vermir. Ümumilikdə şiəlikdə bu cür kripto cinayət qrupları təcrübəsi yoxdur. Qətl isə konkret iki halda verilə bilər. Birincisi mühakimə ilə - bu edamdır. İkincisi isə xüsusi hallarda dini liderlər qətl fətvası verə bilərlər. Məsələn, 30 il əvvəl Ayətullah Xomeyni hindli yazıçı Salman Rüşdi barəsində belə bir fətva vermişdi. Ancaq indiki halda Gəncə hadisəsini dini motivli adlandırmaq üçün nə fətva, nə də bir çağırış yoxdur”

**Siyası şərhçi Azər Rəşidoğlu da qeyd edib ki, hadisənin şiə məzhəbi ilə heç bir əlaqəsi yoxdur:** “İslam dini insanı qətlə yetirməyi qadağan edir və bir insanın qətlini bütün insanların qətli qədər günah hesab edir. Şiə məzhəbi radikal çağırışlardan uzaqdır. Bir imam Hüseyn aşiqi eşqindən göz yaşı tökə bilər, amma insanı məhkəmənin hökmü olmadan qətlə yetirə bilməz. Azərbaycan əhalisinin yarıdan çoxu şiədir. İndiyə qədər Azərbaycanda hansısa şiə terror törədibmi? Şiəlik terrora qarşıdır. Məhz buna görə də radikal dini cərəyanlara qarşı çıxır. Əminəm ki, istintaq sübuta yetirəcək ki, Gəncənin icra başçısı Elmar Vəliyevin vurulmasının şiəliklə heç bir əlaqəsi yoxdur.

Əgər Yunis bir şiə olaraq, Vəliyevə qarşı sui-qəsd edibsə, bunu özbaşına edə bilməzdi, iqtida etdiyi müctəhidin fətvasını gözləməli idi. Hansı mərceyi-təqlid belə bir fətva verib? Belə fətva olmayıb, deməli, Yunisin şiə terrorçusu olduğu barədə deyilənlər də həqiqətə uyğun deyil.

Əslində Elmar Vəliyevin güllələnməsinə verilən reaksiyalar göstərdi ki, insanlar Gəncənin icra başçısının zülmündən boğaza yığılıb. Vəliyev insanlarla kobud və qeyri-əxlaqi hərəkətləri ilə seçilirdi. Elə bu səbəbə də onu vurdular. Ona qarşı hərəkəti pisləyirəm. Qanunsuzluğa qarşı qanunsuzluqla çıxmaq olmaz. Amma bu hadisə səbəb deyil, nəticə idi. Vəliyevdən narazı olanlar yalnız Gəncə dindarları deyildi. Baş vermiş hadisəyə dini çalar vermək, dövlət çevrilişi rəngini qatmaq hədəfi yayındıra bilər. İsmayıllı və Qubada da eyni hadisələr baş verdi. Ümumiyyətlə, təklif edərdim ki, bələdiyyələrin statusu artırılsın və əhali öz başçısını özü seçsin".

**AXP lideri Pənah Hüseyn isə sualımıza bu cür şərh bildirdi:**

“Məsələni şiəliyə yönəltmək doğru deyil. Mətbuatda məlumatlar yayılır ki, Elmar Vəliyev dindarların yanında İmam Hüseyn və onun ailəsini nə vaxtsa təhqir edib, məscidi təhqir edib, Allah barəsində nümayişkarcasına küfr edib. Bu faktlar təkzib olunmayıb. Belə çıxır ki, deyilənlər həqiqətən baş verib. Buna görə də prinsipcə ona qarşı sui-qəsdə onun bu cür davranışlarının səbəb olduğunu istisna etmirəm. Baxmayaraq ki, hüquqi baxımından istənilən motiv qətl və cinayət hadisəsinə haqq qazandırmır.

Beləliklə, bu hadisədə dini motivlər ola bilər. Lakin hadisəni konkret olaraq şiəliklə əlaqələndirmək doğru deyil".

❑ **Xalidə GƏRAY, “Yeni Müsavat”**

# QMİ-nin Aparat rəhbəri: “Dini radikalizm psixi xəstəlikdir”




**“Qafqaz Müsəlmanları İdarəsi (QMİ) yarandıqdan sonra, ən azı müstəqillik dönəmində bu idarənin tərkibində bir dənə də olsun radikal qrup və cərəyan yaranmayıb. Azərbaycanda İslam təmayüllü bu cür cərəyanların olmamasını söyləmək fikrində deyiləm. Amma onların məhz QMİ-nin stukturunda, icmalarında yaranmasını təkzib edirəm”.**

“Report” xəbər verir ki, bunu QMİ-nin Aparat rəhbəri Simran Həsənov “Dini radikalizmlə mübarizədə birgə fəaliyyətin təşkili və əhəmiyyəti” mövzusunda keçirilən konfransda deyib.

O vurğulayıb ki, İslam dininin radikalizmlə heç bir əlaqəsi yoxdur: “Ümumiyyətlə, bütün səmavi dinlər səbr və təmkin konsepsiyasına əsaslanır. Dini radikalizmin mahiyyətini araşdırdıqda onun psixi xəstəlik olması qənaətinə gəlirsən”.

S.Həsənov qeyd edib ki, son illər ərzində Azərbaycanda dini radikalizmin qarşısının alınması üçün çoxsaylı tədbirlər keçirilib.




Mübariz Qurbanlı

# “Ölkədə qarşıdurma yaratmaq istəyənlər dindən istifadə edirlər”

**“Gəncədəki din adı altında baş vermiş hadisə əvvəldən təşkil olunmuş terror hadisəsidir və bunu təşkil edənlərin məqsədi Azərbaycanda ictimai-siyasi sabitliyi pozmaqdır”.**

APA-nın məlumatına görə, bunu Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı deyib. O bildirib ki, ölkədə qarşıdurma yaratmaq istəyənlər dindən istifadə edirlər: “Bununla onlar dini də təhrif edirlər”.

Komitə sədri qeyd edib ki, Azərbaycan güclü dövlətdir və bu cür təxribatların öz məqsədinə çatmasına imkan verməyəcək: “Gəncədəki hadisənin dinə aidiyyəti yoxdur. Bununla bağlı hüquq-mühafizə orqanları araşdırma aparır, saxlanılanlar var və tezliklə hadisənin arxasında dayanan daxili-xarici qüvvələr ifşa edilib, ictimaiyyətə elan olunacaq. Hadisəni törədəni dəstəkləyənlərə nəzər yetirdikdə - hansı ki onlar hətta Ermənistanda oturaraq Azərbaycan əleyhinə təbliğat aparanlardır - o zaman məsələ aydın olur. Bu, ölkəmizə qarşı terror hadisəsidir”.

# Suriyada döyüşməyə 1000-dən çox azərbaycanlı gedib-rəsmi

## DTX-nin şöbə rəisi: “Bu nəyin nəticəsində baş verib? Təbii ki, reklamın...”

**“Son bir ildə Azərbaycanda xaricdən idarə olunan 7 qeyri-qanuni dini icmanın fəaliyyətinin qarşısı alınıb. On iki əcnəbi ekstremist şəxs Dövlət Miqrasiya Xidmətinin köməyi ilə ölkədən çıxarılıb”. Virtualaz.org bildirir ki, bunu “Dini radikalizmlə mübarizədə birgə fəaliyyətin təşkili və əhəmiyyəti” mövzusunda keçirilən konfransda Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) şöbə rəisi Suad Mahmudov deyib.**



O qeyd edib ki, Dövlət Sərhəd Xidməti ilə birgə iş nəticəsində xaricdəki münaqişələrdə iştirak edən 20 ekstremist ölkəyə qayıdarkən saxlanılaraq istintaq orqanlarına təhvil verilib: “Dövlət Təhlükəsizliyi Xidməti bu gün aidiyyəti orqanlarla birgə ölkədə ekstremizm və radikallıq meyllərini4n qarşısını almaq məqsədilə ardıcıl və sistemli iş aparır. Bu gün dinlə bağlı məsələlərə sırf insan hüquqları və milli-mənəvi dəyərlər prizmasından deyil, həm də təhlükəsizlik baxımından yanaşılması dövlətin hüququdur”.

DTX rəsmisi bəyan edib ki, din dövlətdən ayrı olsa da, dövlət ölkədəki dini duruma və vətəndaşların təhlükəsizliyinə görə bilavasitə məsuliyyət daşıyır.

S.Mahmudov Suriyadakı münaqişə bölgəsinə gedən Azərbaycan vətəndaşları barədə də danışıb. O qeyd edib ki, Şimali Qafqazdakı terror qruplarına qoşulan Azərbaycan vətəndaşlarının sayı onlarla ölçülürdüsə, Əfqanıstan, Pakistan bölgəsinə getmiş Azərbaycan vətəndaşlarının sayı 300-ə yaxın, Suriyadakı münaqişə bölgəsinə gedənlərin sayı isə 1000-dən artıq olub: “Bu nəyin nəticəsində baş verib? Təbii ki, reklamın. Hər bir münaqişənin ekstremistlərə mənsub olan kütləvi informasiya vasitələrində, internet saytlarında, eyni zamanda sosial şəbəkələrdə aparılan suni təbliğat mexanizmi buna təsir etdi. Niyə Suriyadakı hadisələrə qoşulan oldu? Çünki bu hadisələrin təbliğatına daha çox önəm verildi, daha çox vəsait ayrıldı. Təbii ki, bütün bu proseslər DTX tərəfindən ciddi nəzarətə götürülür. Bunların qarşısının alınması üçün tərəfimizdən tədbirlər həyata keçirilir. Bunların nəticəsində bu gün Azərbaycanda dini radikalizm prosesinin qarşısı alınır”.

**Elan**

**Ağdaş şəhər sakini Məmmədov Əhməd Afiq oğlunun adına olan H.Əliyev prospekti 126 B/2 A ünvanında torpaq sahəsinin RX 0846777 saylı çıxarışı itdiyi üçün etibarsız sayılır.**

YENİ MÜSAVAT
N 148 (7037) 11 iyul 2018

# Əngəl tanımayanlar üçün yeni həyatın başlandığı məkan...

## Əməkdaşımız 1 saylı Sağlamlıq İmkanları Məhdud Gənclərin Peşə Reabilitasiya Mərkəzindən yazır...

**"2012-ci il, 15 iyul - o gün bütün həyatım alt-üst oldu. 23 yaşımdaydım. Ailəli idim, 3 yaşında bir oğlum vardı. Xalam oğlunun toyuna gedərkən yüksək sürət nəticəsində avtomobilimiz qəzaya uğradı. O qəzada ağır xəsarət aldım və ömürlük əlil arabasına məhkum oldum. Bu qəza məndən təkcə sağlamlığımı yox, ailəmi də aldı. Həyat yoldaşım əlil olduğumu görüb məndən boşandı. Bu vəziyyətimi əsas gətirib məhkəmə yolu ilə oğlumu da əlimdən aldı. Həyatdan bu qədər zərbələr almağım azmış kimi 3 yaşlı balamdan da ayrı qaldım".**









Bu ürəkağrıdan həyat hekayəsinin qəhrəmanı 29 yaşlı Aybəniz Babayeva ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun 1 saylı Sağlamlıq İmkanları Məhdud Gənclərin Peşə Reabilitasiya Mərkəzində tanış olduq. Xalça toxuma dəzgahının arxasında oturub üzərində Nizami Gəncəvinin rəsmi olan eskizi ilmələrə köçürən Aybəniz ilk baxışdan nə qədər sakit görünsə də, içində qopan fırtınalar yalnız onu dinlədikdə aşkara çıxır.

Bir anın içində həyatı dəyişən, illərlə övladına həsrət qalan gənc qadın o qəzadan sonra ağır depressiya keçirir. Aylarla evdən çıxmır, özünə qapanır. Anası Aybənizin özünə qəsd etməməsi üçün gecə-gündüz ona keşik çəkir, bir an onu gözündən qoymur. Yalnız valideynlərinin qayğısı, dəstəyi nəticəsində həyatda qalır. Ağır əməliyyat keçirən qəhrəmanım təkrar ayağa durub yerimək ümidi ilə yaşasa da, yalnız 2 il sonra bunun artıq mümkün olmadığını qəbul edir.

**Fiziki reabilitasiya üçün tibbi mərkəzə gedən Aybəniz günlərin birində 1 saylı Sağlamlıq İmkanları Məhdud Gənclərin Peşə Reabilitasiya Mərkəzi barədə məlumat alır və bu onun həyatına doğan, onu qapanıb qaldığı qaranlıqdan çıxaran yeni bir ümid işığı olur:** "2016-cı ildə Protez-Ortopedik Bərpa Mərkəzində reabilitasiya keçirdim. Orada bir nəfər mənə belə mərkəzin olması haqda məlumat verdi. Mən də belə bir məşğuliyyətimin olmasını çox istəyirdim. Fiziki məhdudiyyətli insanlar üçün zaman daha gec keçir, mən də zamanımın boşa getməsini istəmirdim. Sənədlərimi toplayıb müraciət etdim və 2017-ci ilin fevral ayında buraya gəldim. Burada özümlə eyni vəziyyətdə, hətta daha ağır vəziyyətdə olan insanları görmək də mənə bir qədər psixoloji dəstək oldu, özümdə çox böyük güc topladım. Həyatın sonu olmadığını anladım. İlk olaraq kompüter kursunu keçdim. Sonra xovlu xalça toxumanı öyrəndim, əl işlərim həm müdiriyyətimiz, həm də nazirlik tərəfindən çox bəyənildi. Xalçaçılıq üzrə sertifikat aldım. İndi əl işlərim sərgilərdə nümayiş etdirilir, satışa çıxarılır və ondan gələn qazanc da bizim üçün bir stimul olur. Bundan başqa, idmanla da məşğul oluram. Paralimpiyanın güllə atıcılığı növü ilə məşğul oluram, gözəl nailiyyətlərim olub. Buraya gəldiyim günə qədər yaşadığım 4 illik fiziki məhdudiyyətli həyatım demək olar ki, boşa getdi. Buraya gəldikdən sonra həyat mənim üçün yenidən başladı. Həm cəmiyyətə adaptasiya oldum, həm peşələr öyrəndim. Fiziki məhdudiyyətli bir insan üçün övlad həsrəti çox ağırdır. Lakin mən hər şeyin öhdəsindən gəldim. İradəmin bu qədər güclü olduğunu bilməzdim".

***

Aybəniz Babayevanı və onun kimi yüzlərlə gənci həyata yenidən qaytaran, onlara öz taleyini dəyişmək üçün şans verən 1 saylı Sağlamlıq İmkanları Məhdud Gənclərin Peşə Reabilitasiya Mərkəzi bu təbəqədən olan gənclərin yeni peşələrə yiyələnməklə əmək bazarında iştirak və məşğulluq imkanlarına malik olmalarında, həmçinin onların reabilitasiyası və cəmiyyətə inteqrasiyasında mühüm rol oynayır.

**Mərkəzin direktoru Rəhilə Həsrətova da bizimlə söhbətində bildirdi ki, 2013-cü ilin dekabrında prezident İlham Əliyevin və I vitse-prezident Mehriban Əliyevanın iştirakı ilə açılışı olan Sağlamlıq İmkanları Məhdud Gənclərin Peşə Reabilitasiya Mərkəzində 4 il ərzində 1450 nəfərdən çox gənc peşə reabilitasiyasına cəlb olunub:** ""Əlillərin sosial müdafiəsi haqqında" qanunda belə bir maddə var ki, onların sosial reabilitasiyası və peşə reabilitasiyası tibbi reabilitasiyadan önə keçməlidir. Əvvəllər əlilliyi olan şəxslər haqqında "əmək qabiliyyətsizdir" ifadəsi qeyd olunurdu. Ancaq indi dövlət tərəfindən belə yanaşma tamamilə aradan qaldırılıb. Təkcə bizim mərkəzdə yox, Dövlət Məşğulluq Xidmətinin nəzdində olan Peşə Tədris Mərkəzində də sağlam insanlarla yanaşı, fiziki məhdudiyyətli insanlara da peşə öyrədilir. Ancaq bu insanların əksəriyyəti müxtəlif rayonlardandır və mütəmadi olaraq Peşə Tədris Mərkəzinə gəlib-gedə bilmirlər. O zaman bizim mərkəzin əhəmiyyəti önə çıxır ki, burada fiziki məhdudiyyətli insanlar üçün yaşamaq imkanı da yaradılıb. Təxminən 200 nəfərlik yataqxanamız fəaliyyət göstərir. Hazırda isə 100-ə yaxın gənc mərkəzdə yaşayır. Dövlət tərəfindən onlar hər bir qayğı ilə təmin olunub. Burada həm onların reabilitasiyası, cəmiyyətə inteqrasiyası həyata keçirilir, həm də peşə öyrətməklə məşğulluğu təmin edilir. Bizim uğurlu nümunələrimiz çoxdur. Burada kompüter kurslarından keçənlər var ki, indi dövlət qurumlarında, özəl şirkətlərdə çalışırlar, normal maaş alırlar. Belə olan halda cəmiyyətin də bu insanlara baxışı dəyişir, heç kim onlara acıyaraq baxmır".

Rəhilə Həsrətova deyir ki, mərkəzdə fiziki məhdudiyyətli gənclərə bacarıqlarından asılı olaraq 10 müxtəlif peşə növü öyrədilir. Bununla yanaşı, paralel olaraq həmin gənclər Paralimpiya Oyunlarına da cəlb edilir, idman kurslarına qatılırlar.

Mərkəz direktorunun sözlərinə görə, nazirlik tərəfindən müxtəlif ölkələrin bu cür mərkəzləri ilə təcrübə mübadiləsi istiqamətində əməkdaşlıq müqavilələri də imzalanıb ki, bunun sayəsində gəncləri müxtəlif ölkələrə təcrübə keçməyə və ya dərs deməyə göndərə bilirlər.

**R.Həsrətova onu da qeyd etdi ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin "ASAN Xidmət"lə birgə memorandumu var və bu yolla əlilliyi olan gənclərin məşğulluğu təmin edilir:** "Biz gənclərin düzəltdikləri əl işlərini "ABAD Xidmət"ə göndəririk, onlar alır və "ABAD" brendi altında satış edirlər. Hər bir gənclə fərdi müqavilə bağlanılır və satılan məhsullardan əldə olunan vəsait birbaşa onun kartına yönəldilir. Biz gəncləri istedadı üzrə ali məktəblərə də yönləndiririk. İki gəncimiz Rəssamlıq Akademiyasında oxuyur, İncəsənət Universiteti və Bakı Dövlət Universitetində oxuyan gənclərimiz var. Buraya gələndən sonra sıfırdan hazırlaşıb kolleclərə daxil olanlar çoxdur".

Rəhilə xanımla söhbətimizdən sonra direktor müavini Vüqar Əsgərovun müşayiəti ilə mərkəzlə tanışlıq turumuz başlayır. Müxtəlif peşələrin tədris olunduğu otaqlarda fiziki məhdudiyyətli gənclər həvəslə çalışır, müəllimlərinin dəstəyi ilə peşə öyrənirlər. Əhval-ruhiyyələrindən isə özünəinam və nikbinlik yağır.

Qeyd edək ki, müəssisənin bir neçə korpusu var. Tibbi korpus sağlamlıq imkanları məhdud gənclərin reabilitasiya kursu keçmələri üçündür və ən müasir tibbi avadanlıqla təchiz olunub. Mərkəzin digər bir korpusunda respublikamızın ayrı-ayrı bölgələrindən gələn sağlamlıq imkanları məhdud gənclərin qalması üçün yataqxana fəaliyyət göstərir. Buradakı otaqların hər birində yüksək şərait yaradılıb. Mərkəzdə ayrı-ayrı peşə sahələri üzrə peşə hazırlığı otaqları, həmçinin musiqi və bədii yaradıcılıq otaqları, habelə trenajor, stolüstü oyunlar və konfrans zallarından ibarət idman korpusu sağlamlıq imkanları məhdud gənclərin istifadəsindədir.

Burada görülən işlərdən biri də fiziki məhdudiyyətli gənclərin əmək bazarına çıxış imkanlarının dəstəklənməsidir. Peşə Reabilitasiya Mərkəzində sağlamlıq imkanları məhdud gənclər kompüter istifadəsi, dərzilik, qadın və kişi bərbəri, toxuculuq, ağac üzərində oyma, xalçaçılıq, rəssamlıq, aşpaz köməkçisi və sair peşələr üzrə təlim kursu keçirlər.

**Ağac üzərində oyma sənəti üzrə böyük nailiyyətlər əldə edən fiziki məhdudiyyətli gənc Daşqın Abbasov da bildirdi ki, onların həyatında bu mərkəzin rolu çox böyükdür:** "Fiziki məhdudiyyətli gənclərin ən böyük problemi işsizlikdir. Onlar özlərinə iş tapa bilmirlər. Bu mərkəz həmin gənclər üçün gələcək həyatını qurmaqda, peşə öyrənməkdə çox böyük vasitədir. Dövlət burada bizə çox gözəl qayğı göstərir, bütün maddi ehtiyaclarımızı qarşılayır. Mən ağac üzərində oyma sənətini burada öyrənmişəm. Bizim əl işlərimiz satışa çıxarılır, düzəltdiyimiz milli musiqi alətləri, tarixi abidələri əks etdirən suvenirlər turistlər tərəfindən də alınır, xarici ölkələrə aparılır. Həmçinin Milli Paralimpiya Komitəsinin avarçəkmə üzrə idmançısıyam. Burada hər birimiz həyata yenidən başlamışıq".

2018-ci ilin 1 yanvar tarixinə olan məlumata görə, Azərbaycanda əlilliyi olan şəxslərin və sağlamlıq imkanları məhdud 18 yaşadək uşaqların ümumi sayı 619 310 nəfərdir. Əlillərdən 71 783 nəfəri sağlamlıq imkanları məhdud 18 yaşadək uşaqlardır. Qalanları, yəni 547 527 nəfəri 18 yaşdan yuxarı əlilliyi olan şəxslərdir. I qrup əlilliyi olanlar - 48 164 nəfər, II qrup əlilliyi olanlar -405132 nəfər, III qrup əlilliyi olanların sayı 94 231 nəfərdir.

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin üzvü Rauf Əliyevin sözlərinə görə isə Azərbaycanda son 5 ildə əlillərin sayı 100 min nəfərə qədər artıb. Əlillərin 20 min nəfəri təkcə Bakının payına düşür. Təbii ki, dövlət tərəfindən onların sosial təminatı, məşğulluğunun təmin olunması, cəmiyyətə adaptasiyası istiqamətində mühüm işlər görülür. Lakin görüləcək işlərin başında duran əsas məqam şəhərimizin infrastrukturunda, nəqliyyat sistemində fiziki məhdudiyyətli şəxslərin də nəzərə alınması, onların rahat hərəkəti üçün şərait yaradılmasıdır.

**Bu mərkəzdə reabilitasiya keçib cəmiyyətə qazandırılan insanlardan biri, Boccia İdman Federasiyasının baş katibi İlham Məhərrəmov da bu problemə toxunaraq bildirdi ki, dövlət tərəfindən fiziki məhdudiyyətli şəxslərin həyatının yaxşılaşdırılması üçün yetərincə işlər görülsə də, həllini gözləyən problemlər də var:** "İlk növbədə əlilliyi olan şəxsin evdən çıxıb harasa getməsi üçün nəqliyyatda müvafiq şərait yaradılmalıdır. Bakı Nəqliyyat Agentliyi gərək böyük bir plan tərtib edə ki, bütün bu insanları əhatə etmək mümkün olsun. İlk növbədə həmin insanların oxuduqları, çalışdıqları yerlərdən "BakuBus" avtobusları keçməlidir ki, mənzil başına çata bilsinlər. Yalnız bundan sonra o insanlar öz üzərlərində çalışa, təhsillərini, peşə bacarıqlarını artıra bilərlər. İctimai nəqliyyat vasitələri, piyada keçidləri əlilliyi olan insanlar üçün əlçatan olarsa, bu zaman bir çox problemlər həllini tapmış olar".

Ölkəmizdə belə bir Peşə Reabilitasiya Mərkəzinin olması həm də artıq fiziki məhdudiyyətli insanların dövlətin diqqətində olduğuna və gələcəkdə də onların həyatının yaxşılaşdırılması istiqamətində mühüm işlər görüləcəyinə dair bir mesajdır. Ümid edək ki, bu insanların müxtəlif səbəblərdən qazandıqları bu məhdudiyyətlər və həyatlarında yaşanan problemlər məhz dövlətin həyata keçirəcəyi bu tədbirlərlə aradan qalxmış olar.

**P.S.** *Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçündür.*

❑ **Nərgiz LİFTİYEVA,**

YENİ MÜSAVAT
N 148 (7037) 11 iyul 2018



# İngilislər evə, Xorvatiya finala...

## Bukmeyker kontorları bugünkü yarımfinalda İngiltərə millisini favorit görür, əslində isə...

**Rusiyada keçirilən futbol üzrə XXI dünya çempionatında bu gün daha bir finalçının adı məlum olacaq. Saat 22:00-da İngiltərə millisi Xorvatiya ilə qarşılaşacaq.**

**Statistika nə deyir?**

Xorvatiya müstəqillik qazanandan sonra ilk dəfə 1996-cı ildə İngiltərə millisi ilə yoldaşlıq görüşü keçirib. İlk görüşdə hesab açılmayıb.

2004-cü il Avropa çempionatında bu komandalar bir qrupa düşmüşdülər. Həmin qarşılaşmada ingilislər Xorvatiyanı 4:2 məğlub edib. 2008-ci ildə isə Avropa çempionatının seçmə mərhələsində yenə bir qrupda mübarizə aparıblar. Zaqrebdəki oyunda İngiltərə 2:0 məğlub olub. Uembli stadionunda da Xorvatiya meydan sahiblərini 2:3 məğlub edib.

2010-cu ildə püşk bu komandaları Avropa çempionatının seçmə mərhələsində yenə rəqib edib. İngilislər bu dəfə məğlubiyyətin əvəzini çıxıblar. Hər iki oyunda İngiltərə qalib gəlib. Rəqib meydanında 4 qol vurub, 1 top buraxıb, öz meydanlarında isə Xorvatiyanı darmadağın edib: 5:1. Bu komandalar 7 ildən sonra ilk dəfə bu gün qarşılaşacaqlar. Həm də finalın bir addımlığında...

**İngilislər-emosiyasız, gənc və...**

Mundialla bağlı yazılarda İngiltərə millisi haqda bir neçə qeydlər etmişik. Futbolun yaradıcıları 1966-cı ildən bəri nə Avropa çempionatında, nə DÇ-də uğur qazana bilməyib.1990-cı ildən sonra İngiltərə ilk dəfədir yarımfinala çıxıb və final oynamağa çox yaxındır.

İngiltərə bu mundialda gənclərdən ibarət, nizam-intizamlı, yaxşı təşkil olunmuş komanda kimi çıxış edir. Qrup mərhələsində yalnız Belçikanın 2-ci heyəti ilə oyunda (İngiltərə də əsas heyətlə oynamayıb) minimal hesabla uduzub. Tam olaraq Premyer-Liqadakı klubların oyunçularından təşkil olunmuş İngiltərə millisi məhsuldar oyunu ilə seçilir-11 top. İngilislər fonemenal futbol oynamırlar. Amma komanda rəqibin adi bir səhvindən dərhal istifadə edir, düşən fürsətdən yararlanırlar. İngiltərənin oynadığı futbol emosional və həyəcanlı deyil. Səhvsiz oynamağa çalışmaları, xüsusən ötürmələrdə diqqətli oynamaları indilikdə ən böyük üstünlükləridir .

Qrup mərhələsində Panamanın qapısından 6 top keçirən ingilislər mundiallar tarixində ilk dəfə böyük hesabla qalib gəliblər. Daha bir rekord isə penaltilərlə 4 dəfə uduzaraq "pley-off"dan evə dönən İngiltərə Kolumbiya ilə 1/8 qarşılaşmasında bu lənətdən qurtarmalarıdır. Daha bir rekord da yenə İngiltərə millisinə aiddir. Belə ki, millinin hücumçusu Harri Keyn 6 topla mundialın bombardirlər siyahısına başçılıq edir.





Baş məşqçi Qari Sautqeyt Kolumbiya ilə oyundan sonra deyib ki, komandası hələ heç nəyə nail olmayıb. O deyib ki İngiltərə millisi istənilən komanda ilə mübarizə aparmağa hazırdır.

Milli komandanın bu gün fərqli oyun üslubu seçəcəyi inandırıcı deyil. Çünki onlar keçirdikləri bütün oyunlarda eyni tapşırıqlarla meydana çıxırlar.

**Mundialın "qara atı"**

Mundialın "qara atı" hesab olunan Xorvatiya millisi isə "yorğun atı" xatırladır. Son iki oyunda əlavə vaxt və penaltilərdən sonra yarımfinala gələn Xorvatiya millisi üçün bərpa prosesi asan olmaya bilər. Komanda ingilislərlə müqayisədə yaşlıdır. Amma Xorvatiyanın əsas üstünlüyü Luka Modriç kimi "yaradıcı" yarımmüdafiçəsi olmasıdır. İndi mundialda cəmi iki güclü yarımmüdafiəçi var: Modriç və Eden Azar. Modriç rəqib hücumlar üçün nə qədər "dağıdıcıdırsa," öz komandası üçün o qədər yaradıcıdır. Ruslarla oyundan sonra rus şərhçilər onun meydanda funksiyasını konkret epizodlarla təhlil edirdilər. Heyrət bir mənzərə... Oyunda onun gördüyü işi tamaşaçı izləyə bilməz. Təsadüfi deyil ki, indi Modriç dünyada ən yaxşı yarımmüdafiəçidir.

Bugünkü qarşılaşmada Xorvatiyanın ən əsas silahı da Modriç və şübhəsiz ki, Mario Mandzukiçdir. Xorvatiya yarımfinala vəsiqə qazananda komandanın baş məşqçisi Sladko Daliçinin ağlaması komandanın hansı yükün altına çiyin verdiyini və bunun məsuliyyətini anladıqlarını göstərir. Oyunda komandaların açıq mübarizə, yoxsa fürsət gözləyib qol vuracaqlarını, kimin ağlayan, kimin gülən tərəf olacağını axşam biləcəyik.

**Bukmeykerlər təlaşda: kim qalib gələcək?**

Dünyanın ən nüfuzlu bukmeyker kontorları pulu İngiltərənin xeyrinə yatırırlar. Fərq o qədər də yüksək deyil, amma nədənsə, ingilislərin qələbəsini daha çox proqnozlaşdırırlar. Sadalanan arqumentlər heç biri şəxsən mənə inandırıcı gəlmir. Bu gün Xorvatiya daha çox qələbə qazanmağa yaxındı. O səbəbdən də yazının sərlövhəsini belə vermək riskinə getdim.

Çempionat bitir, həyəcan isə daha da artır. İngilislərin evə dönməsi lazım, hökumət böhranı və yeni müəmmalı zəhərlənmə və sair problemlər var. Xorvatiyada isə sakitlikdir, tufanqabağı sakitlik... Yeri gəlmişkən, Xorvatiyanın yaraşıqlı xanım prezidenti Rusiya ilə oyuna gəlmişdi, bu gün də onun yenidən komandasına dəstək üçün gələcəyi gözlənilir...

Sonda qeyd edək ki, oyunu türkiyəli Cüneyit Çakır idarə edəcək. Onun Argentina və Nigeriya ilə 1/8-də afrikalıların penaltisini VAR-a baxdıqdan sonra verməməsini bəzi türk şərhçilər ədalətli hesab etmədi. Bu gün Çakır nə qərarlar verəcək? Allah insaf versin...

**❑ Nazim SABİROĞLU, "Yeni Müsavat"**



# YENİ MÜSAVAT

## Son səhifə

N 148 (7037) 11 iyul 2018




## Uşağı qaçırıb, 24 il sonra geri qaytardılar

Çinli bir adam 24 il əvvəl ayrıldığı atasına qovuşub. Ata-balanın ayrılığına səbəb isə onların getdiyi qida bazarında uşağın qaçırılması olub. Sun Bin adlı gənc atası ilə bazara gedəndə cəmi 4 yaşında idi. Hazırda 28 yaşında olan Sun Bin oğurlanandan sonra evlərindən 600 kilometr uzaqlıqda olan Xuzhou şəhərində uşağı olmayan bir ailəyə 450 manata satılmışdı. Sun Bin deyib ki, "onlar öz ata-anamı məndən oğurladıqları üçün daim aramızda bir məsafə vardı. Amma hər zaman bilirdim ki, həqiqi ailəmi tapmalıyam. Müəyyən bir yaşa gələnə qədər ögey valideynlərimlə həqiqi ailəmlə bağlı danışmadım".

Sun Bin 2010-da öz valideynlərini axtarmağa başlayıb. İlk addım kimi isə DNA nümunələrini bir banka verib. Beləcə, axtarış başlanıb və ata-bala qovuşublar. 45 yaşındakı atası Ku və anası Lo isə uşaqları itdiyi gündən etibarən 4 il boyunca axtarıblar. Amma ana oğlunun həsrətinə dözməyib xəstələnəndən və öləndən sonra axtarışlar məcburən dayandırılıb. 24 il sonra hökumətin və polislərin müdaxiləsindən sonra bir-birinə qovuşan ata-bala göz yaşlarını saxlaya bilməyib.

## O, dünyanın ən yaşlı begemotu idi...

Dünyanın ən yaşlı begemotu Filippindəki zooparkda ölüb. Berta ləqəbli heyvanın 65 yaşı olub. Bu barədə lenta.ru saytı Channel NewsAsia-ya istinadən xəbər verib. Zoopark əməkdaşları Bertanı 7 iyulda, saxlandığı qəfəsdə tapıblar. Heyvanın ölümünə səbəb isə bəzi daxili orqanların öz fəaliyyətini dayandırması olub. Manil zooparkı 1959-cu ildə açılıb. Həmin vaxt 7 yaşı olan Berta zooparkın birinci sakinlərindən olub. Amma heyvanın konkret hansı ölkədən gətirilməsi ilə bağlı məlumatlar itirilib. Begemotların vəhşi təbiətdəki ömrü 40 ilə qədərdir. Onlar çox nadir hallarda



50 yaşa qədər yaşayırlar. 2017-ci ilin iyununda, Avstraliyadakı Adeliada zooparkında dünyanın ən tənbəl begemotu yaşayırdı. Onun 43 yaşı vardı, amma təmsil etdiyi növ 10-12 yaşdan çox yaşamırdı.

## 60 yaşlı timsahı 8 il sonra yaxaladılar

Avstraliyada səkkiz illik cəhddən sonra böyük timsah yaxalanıb. Bu barədə "The Daily Telegraph" nəşri xəbər verir. Nəhəng heyvan 600 kilo ağırlığında və 4.7 metr uzunluğundadır. Yerli sakinlər onu ilk dəfə 2010-cu ildə, Ketrin çayında aşkarlayıblar. Veterinarların rəyinə görə, onun 60-a yaxın yaşı var.

"Biz bu illər ərzində bütün üsulları sınaqdan keçirdik ki, onu yaxalayaq. Amma bu, o qədər də asan iş deyildi. Amma heyvanın ölçülərini, çəkisini və yaşını nəzərə alanda onun yaxalanması olduqca böyük hadisədir. Bu fiziki göstəricilərinə görə biz ona hətta hörmət də edirik", - bunu da timsahı yaxalama əməliyyatına başçılıq edən Con Berk deyib. Heyvanı timsah fermasına yerləşdiriblər ki, insanlardan qorusunlar. "Bu, bizim bu günə qədər Ketrin çayından yaxaladığımız ən böyük timsahdır", - bunu da Avstraliyanın Mədəniyyət və Turizm Nazirliyinin vəhşi təbiətlə mübarizə bölməsinin rəhbəri Treysi Daldiq deyib.

Orta hesabla Avstraliya ərazisində vəhşi timsahlar il ərzində iki insanı öldürürlər. 1970-ci ildən etibarən onların populyarlığı artır. Belə ki, onlar kökü kəsilməkdə olan canlılar qrupuna daxil edilmişdi.





## Həkim qızı bir dəfə gördü... indi evlənmək üçün onu axtarır

Kanadalı diş həkimi Sendi Kroker 8 min kilometr yol qət edərək İrlandiyaya gəlib. Səfərdə məqsədi isə 2011-ci ildə cəmi bir neçə dəqiqə söhbət etdiyi bir qızı yenidən görməsi olub. Lenta.ru saytının xəbərinə görə, 34 yaşlı həkim cavan irland xanımı unuda bilmir və hesab edir ki, bu qız onun qismətidir. Krokerin sözlərinə görə, o, bu gözəl xanımı 2011-ci ilin iyul ayında Kler qraflığında, Ennistimonda görüb. Bu, yerli kafedəki səhər yeməyi zamanı baş verib. Bu gözəl xanımı görən kimi onunla tanış olan Kroker ancaq hava, habelə ölkənin gəzməli yerləri barədə danışmağa fürsət tapıb. Stomatoloq etiraf edib ki, səfərdən sonra da bu qız haqda düşünməyə davam edib və nəhayət, ölkəyə qayıdaraq, qızı tapana qədər onun bütün şəhərlərini gəzməyə qərar verib. Kroker deyib ki, bu qızın 20 yaşı və tünd-sarı rəngdə saçları, habelə çilləri var. Artıq ölkədə bu gəncin axtarışlarının nəticələri ilə bağlı mərclərə də başlanıb.

## Qoroskop




**QOÇ** - Hər mənada gərgin gündür. Bu səbəbdən hətta kiməsə salam verərkən də ehtiyatlı olun. Nəqliyyata az minin, ümumiyyətlə, iqlimin təhərindən asılı olaraq daha çox ev şəraitində olmağa çalışın.

**BUĞA** - Bütün gücünüzü daxili sabitliyin bərpasına sərf edin. Onsuz da gün ərzində qeyri-adi yeniliyin şahidi olmayacaqsınız. Kosmik fonun bürcünüzdəki neqativliyini nəzərə alın.

**ƏKİZLƏR** - Pul qazanmaq üçün şanslı təqvim olsa da, münasibətlər zəminində ölçülü-biçili davranmalısınız. Ailə-sevgi davranışlarında özünüzü çoxbilmiş və haqlı kimi göstərməyin.

**XƏRÇƏNG** - Hazırda qərar tutduğunuz ünvanlarda önəmli yeniliklər gözlənilmədiyi üçün ulduzlar vaxtınızı səfər və qonaqlıqlara həsr etməyi daha münasib sayır. İmansız adamlardan qaçın.

**ŞİR** - İxtiyarınızda olan bu gündə daha çox istirahətə önəm verin. Hansısa mübahisəli məsələlərə aydınlıq gətirməyə tələsməyin. Əks təqdirdə, baş verənlər əsəbləriniz tarıma çəkəcək.

**QIZ** - Son aylar sanki tam real olan bütün işləriniz boşa çıxıb. Bu səbəbdən də əsəbi və bədbin olmusunuz. Elə isə bu günə ümid bəsləməyə dəyər. Amma danışıq aparan zaman güzəştə çox getməməlisiniz.

**TƏRƏZİ** - Sağlıq durumunuzda fəsadlar gözlənilir, amma həkimlərin yanlış diaqnozu da mümkündür. Odur ki, özünüzə özünüz əncam çəkin. Xalq təbabəti üsullarından da yararlanmaq olar.

**ƏQRƏB** - Baxmayaraq ki, çoxları istirahətə köklənib, sizin üçün daha çox aktivlik ərəfəsidir. Çünki bu təqvimdə elə planlarınız həyata keçə bilər ki, ayın sonuna qədər sizə səmərə verər.

**OXATAN** - Qoroskopa görə bu günün ən aktiv bürcü siz olmalısınız. Amma özünüzü hər hansı xəstəlikdən qoruyun ki, əhvalınız aşağı düşməsin. Belə probleminiz olmasa, hər şey xeyrinizə olacaq.

**OĞLAQ** - Ötən ongünlükdə yığdığınız gərginliyi dəf etmək üçün mənəvi istirahətə, sevdiyiniz insanlarla bir araya gəlməyə daha çox yer verin. Büdcənizdə müsbət dəyişiklik də gözlənilir.

**SUTÖKƏN** - Bu gün aldığınız istənilən iş təklifinin müsbət nəticəsi olacaq. Odur ki, bəzi adamların paxıllıqdan doğan "məsləhətlərinə" əhəmiyyət verməyin. Kasıbçılığı sınaq kimi dəyərləndirin.

**BALIQLAR** - Qarşınızda əsl biznes günü durub. Odur ki, vaxtı fövtə verməməli, qarşınıza çıxan hər bir şansdan yararlanmalısınız. Köhnə ideyalara yenidən baxmaq da olar. Ünsiyyətdə acıdil olmayın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Ölü balina həyatını xilas etdi



Avstraliyada gənc bir adam suda sürüklənən ölü bir balinanın üzərinə çıxmış vəziyyətdə görüntülənib. İşin ən maraqlı tərəfi isə balinanın ətrafında köpək balıqlarının üzməsi idi. Harrison Villiams adlı gənc qayığı ilə dənizdə tura çıxdığı zaman acı çəkdiyini düşündüyü balinaya yardım etmək üçün suya hoppanıb. Amma balinanın yanına gəldikdən sonra ölü olduğunu anlayan Villiams onun üstünə çıxanda qəribə mənzərə ilə qarşılaşıb. Məlum olub ki, yaralı balinanın ətrafındakı köpək balıqları onu didmək üçün növbəyə dayanıblar. Gənc bu mənzərədən qorxuya düşdüyü üçün qışqırmağa başlayıb. Onu başqa bir gəmidəki heyət xilas edib.

Səhifəni hazırladı: SELCAN


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100